Məlumdur ki, mikroelementlər bitki orqanizmində maddələr mübadiləsinə, fermentlərin fəallığına, məhsulun kəmiyyət və keyfiyyətinə müsbət təsir etməklə, bitkilərin xarici mühitin stres amillərinə qarşı müqavimətini artırır [1,2]. Ədəbiyyat məlumatlarından göründüyü kimi, mikroelemetlərin bitkilərdə baş verən müxtəlif fizioloji- biokimyəvi təsirinin öyrənilməsi istiqamətində geniş tədqiqat işləri aparılmışdır.Bizimtədqiqatlarımızda məqsəd sink duzları ilə işlənmiş toxumlardan alınmış cücərtilərdə böyümə və inkişaf proseslərinin, fotosintez piqmentlərinin miqdarının öyrənilməsi olmuşdur. Tədqiqat obyekti olaraq Bərəkətli-95 buğda sortunun toxumları götürülmüşdür. Toxumlar 0.5%-li hidrogen peroksid məhlulu ilə dezinfeksiya edildikdən sonra müxtəlif qatılıqlı sink duzları və sinkin amin turşuları iıə əmələ gətirdikləri birləşmələrlə isladılaraq bir sutka ərzində həmin məhlullarda saxlanıldıqdan sonra peter nimçələrində əkilmişdir. Toxumların cücərmə faizi, cücərmə enerjisi, cücərtilərin böyümə sürəti, cücərtilərdə fotosintez piqmentlərinin miqdarı təyin edilmişdir. Bir həftəlik bitkilər su stresinə məruz qoyulmuş və yenidən sulanaraq stres vəziyyətindən çıxmaları izlənilmişdir. Sink sulfat duzunun müxtəlif amin turşuları ilə birləşmələrində isladılmış buğda toxumlarının cücərmə enerjisi 3 günlük cücərtilərdə, cücərmə faizi isə 7 günlük cücərtilərdə təyin edilmişdir.$ZnSO_4$ -sisteinvariantıda cücərmə enerjisi digər variantlara nisbətən daha çoxdur. Bizim təcrübələrimizdə 10 günlük buğda cücərtiləri quraqlıq stresinə məruz qoyulmuş və sonradan su verilməyə başlanmışdır. $ZnSO_4$ duzunun müxtəlif amin turşusu məhlulları ilə işlənmiş toxumlardan alınan cücərtilərin stres vəziyyətindən çıxması müxtəlif olmuşdur. İlk dəfə olaraq stres vəziyyətindən çıxan $ZnSO_4$-sistein, sonra $ZnSO_4$ –metionin, $ZnSO_4$- tiokarbamid və ən nəhayət adi su ilə isladılmış

nəzarət variantı olmuşdur. $ZnSO_4$ duzunun müxtəlif amin turşuları ilə birgə təsirindən fotosintez piqmentlərinin miqdarında artım müşahidə edilmişdir. Aparılan tədqiqatların nəticələri göstərir ki, $ZnSO_4$ duzu ilə sistein və metionin amin turşular kompleksi ilə işlənmiş toxumların cücərməsindən alınan bitkilər quraqlıq stresinə davamlı olurlar və onlarda fotosintez piqmentlərinin miqdarı nəzarət varianta nisbətən çox olur. Aparılan təcrübələrdə [3] Zn elementinin əsasında asan mənimsənilə bilən amin turşu kompleksləri sintez edilmiş və onların bitkilərin morfofizioloji xüsusiyyətlərinə, antioksidant fermentlərin fəallığına təsiri öyrənilmişdir. Buğda bitkisinin ontogenezində bu birləşmələrə tələbatın daha çox olduğu müəyyən edilmişdir. Ona görə də toxumların bu birləşmələrlə səpin qabağı işlənməsi yüksək effekt verir.

Ədəbiyyat

1. Abutalıbov M.H., Əliyev C.Ə. Mikroelementlərin bitki orqanizmində karbohidratların hərəkətində rolu. Azərbaycan Elmlər Akademiyasının xəbərləri. Biologiya elmləri seriyası. 1965. No 4. Səh. 35-39.
2. Gundareva A.N. 2006.Influence of microelements on the growth and development of cereal plants. Bulleten ASTU. №3 (32). PP.197-201.
3. Каграманова Ш.И., Гулиева Э.А., Сулейманов Г.З., Азизов И.В. Синтезкомплексовмарганца с аминокислотами и изучение их влияния на морфофизиологические показатели проростковпшеницы. Сборник научных трудов по материалам IX Международной научно-практической конференции.Белгород, 2015.С. 35-37.

S.Y. İbrahimova, Q.Z. Hüseynov

Bakı Dövlət Universiteti

sebaibrahimova.1@gmail.com

TİOLLARIN α, β-DOYMAMIŞ KARBONİLLİ BİRLƏŞMƏLƏRLƏ REAKSİYALARI

Məlumdur ki, sulfidlər aşqar kimi sürtkü yağlarının keyfiyyətini yaxşılaşdırmaq xassəsinə malikdirlər. Müvafiq xassə göstərən sulfidlərin sintezi məqsədilə başlanğıc maddə kimi daha çox tiollardan istifadə olunur[1].

Müəyyən olunmuşdur ki, sulfidlərin molekulunda kükürd

atomuna görə β- vəziyyətdə alkoksikarbonilmetiltio fraqmentinin -SCH_2COOR (R-alkil radikalıdır) olması birləşmənin antikorroziya xassəsini kəskin surətdə yaxşılaşdırmaqla yanaşı onlara əlavə faydalı xassələr (yağlayıcı, antimikrob) verir. Aydındır ki, sulfid molekulundakı müxtəlif funksional qrupların sinerqizm doğuran qarşılıqlı təsirinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, merkaptosirkə turşusu efirlərinin müxtəlif üzvi maddələrlə, o cümlədən doymuş aldehid və ketonlarla reaksiyaları öyrənilmiş, sürtkü yağlarının keyfiyyətini yaxşılaşdıran çoxfunksiyalı xassəyə malik maddələr sintez edilmişdir[2].

Doymuş aldehid və ketonlarla müqayisədə α, β- doymamış karbonilli birləşmələrin tiollarla reaksiyaları az öyrənilmişdir. Müvafiq şəriat seçməklə göstərilən birləşmələrin tiollarla reaksiyaları nəticəsində molekulunda kükürd atomu olan aldehidlər və ketonlar alınmışdır.

Müəyyən olunmuşdur ki, əsasi katalizatorun iştirakı ilə tiolların α, β- doymamış karbonilli birləşmələrlə reaksiyasından C-S rabitəsi karbonil qrupuna görə β-vəziyyətdəolan karbon atomunun iştirakı ilə əmələ gəlir.



Göstərilən üsulla tiofenolunbeznilidenasetonla reaksiyasından β-fenilmerkaptobenzil-aseton, metil merkaptanınmetilvinilketonla reaksiyasından 4-metilmerkaptobutanon-2 alımışdır[3].

Ədəbiyyat

1. Синтез сульфидов, тиофенов и тиолов. Отв. Ред Е.Н.Караулова, М.Наука, 1998, 208 с.
2. Гусейнов К.З. Функциональные производные тиолов и фенолов в качестве при присадок к смазочным маслам и топливам. Дис. На соиск док. Хим наук. Баку: Институт химии присадок АН Азерб. ССР, 1991, 471 с.
3. Вейганд–Хильгетаг. Методы експеримента в органической химии. М: Химия,1968, 944 с

Ə.Ə. Babazadə, İ.E. Süleymanov, N.Q. Şıxəliyev
Bakı Dövlət Universiteti
aliyarbabazade5@gmail.com

SİNTEZ EDİLMİŞ DİXLORDİAZADİENİN EFİRLƏŞMƏ REAKSİYASI

Son dövrlərdə üzvi kimyaçılar planlaşdırılmış sintezlərdən daha geniş istifadə edirlər. Bu baxımdan tərəfimizdən katalitik olefinləşmə reaksiyası şəraitində dixlordiazabutadien sintez edilmiş və onların növbəti çevrilməsi ilə fizioloji aktiv asetosirkə efirinin hidrozo törəmələri sintez edilmişdir. Reaksiya çox sadədir. Dixlordiazadienin spirtdə müəyyən müddət qaynadılması nəticəsindəalınır. Bu reaksiya zamanı çox maraqlı hal müşahidə edilmişdir. Belə ki, NMR spektri vasitəsilə siqnalların əsasən duplet şəklində çıxması burada qarışıq izomerlərin alındığını deməyə əsas verir. Birləşmənin kalonka xromatoqrafiyası vasitəsilə həmin o qarışıqlardan ayrılmış və individual olaraq spektrləri çəkilmişdir. Müəyyən edilmişdir ki, burada sözü gedən efirin Z və E izomerləri alınmışdır. Alınmış Z izomerində molekuldaxili hidrogen rabitəsi olması hesabına Z izomerin NH protonu 12,5 m.h-da,E izomerdə isə NH protonu 8,5 m.h-daçıxmışdır. Buna görə də Z izomerində molekuldaxili hidrogen rabitəsinin olması müəyyən edilmişdir. Ümumiyyətlə sintez etdiyimiz birləşmələr fizioloji aktivlik göstərdiyindən gələcəkdə bu efirlərin antimikrob xassələrinin yəni fizioloiji xassələrinin öyrənilməsi nəzərdə tutulmuşdur.



Ədəbiyyat

1. Aytən M Qacar., Mircəlil S Əbdülov., Şəfiqə A.İbrahimova, Gülnar T Süleymanova, Gülnarə V.Babayeva, Namiq Q.Şıxaliyev, Abel M Məhərrəmov, 4-metil benzaldehid əsasında dixlordiaza-butadienlərin sintezi, Pedaqoji Universiteti Xəbərləri, 2020, C68, №1, 39-47
2. Шихалиев Н. Г., Аскерова У. Ф., МухтароваС. Г., Ниязова А. А., Магеррамов А.М., Дороватовский П. В., Хрусталев В. Н., Ненайденко В. Г. Журналорганическойхимии, 2020, Т. 56, № 2, стр. 173-181.

Ə.Ə. Babazadə, İ.E. Süleymanov, N.Q. Şıxəliyev
Bakı Dövlət Universiteti
aliyarbabazade5@gmail.com

BİOLOJİ AKTİV FENİLSİRKƏ TURŞUSU EFİRLƏRİNİN HİDROZO TÖRƏMƏLƏRİNİN SİNTEZİ

Katalitik olefinləşmə reaksiyaları əsasında sintez edilmiş dixlordiazadienlər üzvi sintezdə bir çox birləşmələrin alınmasında qiymətli məhsullar sayılır. Heminaldihalogen atomu saxlayan vinilbenzolbirləşmələrinin ammonyak ilə reaksiyası zamanı alınan amidlərin fenilsirkə turşusunun amidli törəmələri kimi bioloji aktivlik göstərdikləri müəyyən edilmişdir.[1] Bunu nəzərə alaraq tərəfimizdən bu işlərin davamı olaraq dixlordiazadienlərin efirləşmə reaksiyalarını apararaq fenilsirkə turşusu efrinin hidrozo törəmlərini sintez etmişik. Belə ki real olaraq istifadə olunan bir neçə dərman ləvazimatları fenilsirkə turşusunun bəzi törəmləri əsasında sintez edilmişdir. Onlardan geniş yayılmış və tibbi təcrübədə soyuqdəyməyə qarşı qeyristereoid dərman ləvazimatları kimi birmənalı olaraq tətbiq olunan voltaren, diklofenak, ibuprofen və flurbiprofenləri göstərmək olar. Sintez edilmiş bu efirlər də olan aldehid və hidrazonqruplarındakı funksional qrupların elektroakseptor və elektrodonorxassələrindən asılı olaraq onların fizoloji xassələrinin dəyişməsi onların gələcəkdə farmakalogiyada geniş tətbiq olunacağını deməyə əsas verir. Gələcəkdə bu sinif maddələrin sintezi ilə yeni fizioloji xasssələrin ortaya çıxarılması nəzərdə tutulur.



Ədəbiyyat

1. Halogen bondingin (E)-1-(2,2-dichloro-1-(3-nitrophenyl)vinyl)-2-(para- substitutedphenyl)-diazenedyes, Namig G. Shikhaliyev, Abel M. Maharramov, Gulnara V. Babayeva, Gunay Z. Mammadova, Irada M. Shikhaliyeva, Aliyar A. Babazade, Valentine G. Nenajdenko, Arkivoc, 2021, part iii, pp 67-75
2. Шихалиев Н. Г., Аскерова У. Ф., Мухтарова С. Г., Ниязова А. А., Магеррамов А.М., Дороватовский П. В., Хрусталев В. Н., Ненайденко В. Г. Журналорганическойхимии, 2020, Т. 56, № 2, стр. 173-181.

Б.М. Бабазаде, Н.Г. Шихалиев
Бакинский Государственный Университет
babazadebahtiyar20@gmail.com

НЕКОВАЛЕНТНЫЕ СОЕДИНЕНИЯ: ОБЗОР ТРЕНДОВ В СОВРЕМЕННОЙ НАУЧНОЙ ЛИТЕРАТУРЕ

Нековалентные взаимодействия играют важную роль в развитии химии и химической физики. Для них характерно, что в некоторых случаях многие слабые взаимодействия взаимопогашают друг друга, а иногда – наоборот, усиливают. [1] К нековалентнымвзаимодействиямотносятся π – π, катион – π, анион – π взаимодействия [2], галогенное связывание [3], халькогенное связывание [4], водородные связи, Ван-дер-Ваальсовы взаимодействия и др. [5]. Ароматические кольца обычно бывают вовлечены в несколько нековалентных взаимодействий одновременно: одна сторона ароматического кольца может участвовать в анион – π взаимодействии, а обратная – в катион – π взаимодействии (или π – стэкинге, или Т-образных взаимодействиях), т.о. образуются триады. Нековалентные взаимодействия ароматических соединений могут играть роль в различных биохимических процессах (функционировании и фолдинге белков, распознавании нуклеиновая кислота – белок, распознавании белок – белок, ферментативном катализе и др.)[2] К нековалентным взаимодействиям также относится галогенное связывание. Галогенное связывание – это взаимодействие, основанное на донировании электронной плотности между атомами галогенов и нейтральными (или анионными) основаниями Льюиса. Оно играет важную роль в дизайне кристаллов, распознавании анионов, контроле свойств галогенированных материалов, получении координационных соединений.[3] На галогенное связывание похоже халькогенное связывание, которое представляет собой взаимодействие между положительно заряженным атомом халькогена и основанием Льюиса. Оно используется для обеспечения стереоселективности реакций, распознавания и транспорта анионов, а также в органическом синтезе.[4] В органическом синтезе также важны водородные связи, в том числе благодаря их роли в синтезе ма-

кроциклов. Помимо водородных, есть и другие нековалентные взаимодействия, используемые в макроциклизации, например, Ван-дер-Ваальсовы взаимодействия. В синтезе макроциклов используются как межмолекулярные, так и внутримолекулярные нековалентные взаимодействия.[5]

Литература

1. Shenderovich I.G. Editorial to the Special Issue "Gulliver in the Country of Lilliput: An Interplay of Noncovalent Interactions". Molecules 2021, 26, 158. doi:.3390/molecules260101582. Lucas Xavier, Bauzá Antonio, Frontera Antonio, Quiñonero David. A thorough anion–π interaction study in biomolecules: on the importance of cooperativity effects, Chem. Sci., 2016, 7, 1038-1050. doi: 10.1039/C5SC01386K
2. Maharramov A.M., Shixaliyev N.Q., Gurbanov A.V., Mahmudov K.T., Nenajdenko V.N., Pombeiro A.J.L., Kopylovich M.N. Halogen bonding in the synthesis and design of coordination and organometallic compounds.
3. Vogel L,, Wonner P., Huber S.M. Chalcogen Bonding: An Overview. AngewandteChemie International Edition, 2018. doi:10.1002/anie.201809432
4. Kataev E.A. Non-Covalent Interactions in the Synthesis of Macrocycles.

G.M. Məhərrəmova, N.M. Nəzərov, S.S. Babayev

Aşqarlar Kimyası İnstitutu AMEA

840830542@mail.ru

1-N-FENİL-3,4-DİHİDROPİRİMİDİN-2(1H)-TİONLARIN SİNTEZİ

Tiokarbamidlər müasir üzvi sintezdə müxtəlif heterotsiklik sistemlərin alınmasında geniş istifadə olunan ən münasib sintonlardır [1, 2].

Üçflüorsirkə turşusu iştirakında spirt mühitində p-toluol aldehidindietilmalonat və feniltiokarbamid ilə qarşılıqlı təsirindən 65%çıxımla 1-N-Fenil-3,4-dihidropirimidin-2(1H)-tion alınmışdır. Sintez aşağıdakı sxem üzrə aparılmışdır:



Mexaniki qarışdırıcı, termometr və soyuducu ilə təchiz olunmuş üçboğazlı kolbaya 1,52 q (0.01 mol) feniltiokarbamid, 1,49ml (0.01 mol) p-toluol aldehidi, 1,6 ml (0.01 mol) dietilmalonat əlavə edilir. Qarışıq 10 mlasetonitrildə həll edilərək onun üzərinə 1-2 damcı CF_3COOH əlavə edilir. Reaksiya 5 saat müddətinə 70-75°C temperatur intervalında sürətli qarışdırılır. Reaksiyanın gedişinə nazik təbəqəli xromotoqrafiya ilə nəzarət edilir. Reaksiyanın başa çatdığı müəyyən olduqdan sonra qarışıq 0°C temperatura qədər soyudularaq bir gün saxlanılır. Çökmüş 1-N-Fenil-3,4-dihidropirimidin-2(1H)-tionun ağ kristalları süzülərək ayrılır və dixlor metanda yuyulduqdan sonra etil spirtində yenidən kristallaşdırılır. Elyuent kimi heksan:etil spirtinin 5:2 nisbəti götürülür. Çıxım 65% təşkil edir. Ərimə temperaturu 230°C-dir. Sintez edilmiş 1-N-Fenil-3,4-dihidropirimidin-2(1H)-tionun İQ spektri aşağıdakı şəkildə verilmişdir:



Ədəbiyyat

1. El-Sharief A. M., Hussein A. M., El-gaby M. S. A., Atala A. A., Ahmed A. A., Somecyclizationreactionswith 4-thiohydantion: synthesis of somenovelthiopyranoimidazoles, thienoimidazoles and imidazoquinolines and some metal complexeswithbiologicalinterest. // Phophorus, Sulfur, Silicon and theRelatedElements, 2001, v. 170, №1. p. 47-63.
2. Малевская И.В., Кольцова Е.В., Вороненко. Э. В., Орехова Т.Ф. // Хим. Фарм. Жур., 2001, т. 35, №1, с. 19.

G.S. Abdullayeva, B.E. Səfərov, Ə.R. Sucayev, R.Ə. Nəcəfova
AMEA akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu,
Bakı, Azərbaycan
sucayevafsun@gmail.com

PATOLOJİ HALLARA QARŞI DAHA TƏSİRLİ FİZİOLOJİ AKTİV MADDƏLƏRİN SİNTEZİ VƏ TƏDQİQİ

Zərif üzvi sintezin ən çətin problemlərindən biri, aminospirt və tiokarbamid törəmələri kimi açıq zəncirli birləşmələrdən bir neçə fərqli aktiv funksional qrupu və reaksiya mərkəzini özündə ehtiva edən heterotsiklik birləşmələrə keçiddir [1]. Bu səbəblə, açıq zəncirli aminospirtlər əsasında tiokarbamidlərin yeni heterosiklik törəmələrinin sintezi, onların kimya, biokimya, tibb üçün olduqca aktual olan bioloji xüsusiyyətlərin - antioksidant, ferment-izoenzimlərə inhibitor təsirlərin müfəssəl öyrənilməsi istiqamətində müəyyən araşdırmalar aparılmış və bır sıra mühüm nəticələr əldə edilmişdir. Belə ki, aminospirtlər əsasında bir mərhələli üçkomponentli kondesləşmə reaksiyaları ilə yeni heterosikliktiokarbamid törəmələri sintez olunmuş, onların bəzi kimyəvi reaksiyaların kvant kimyəvi hesablamaları ilə simulyasiyası aparılmış, alınmış maddələrin bioloji xüsusiyyətlərinin araşdırılması və onların əsasında aşağıdakı ümumi formula malik yeni, daha təsirli fizioloji fəal maddələr yaradılmışdır:



R_1=OCH_3, OC_2H_5, R_2=alk, OCH_3, OC_2H_5, R_3=alk, R_4=Ph.

Formuldan göründüyü kimi məlum olan analoq birləşmələrdən fərqli olaraq sintez olunmuş yeni heterotsiklik birləşmələrin molekulu tərkibinə ayrı-ayrılıqda fəallığa malik müxtəlif fraqmentlər daxildir – assimetrik karbon atomu, karboksil, tion, amin və hidroksil qrupu. Belə aktiv bir neçə qrupun bir molekulda olması daxili sinergizim hesabına onların fəallığının məlum birləşmələrə nisbətən daha yüksək olmasını təmin edir.

Tədqiqat ardıcıl mərhələlər üzrə yerinə yetirlmişdir. Belə ki, əvvəlcə tiokarbamidləaminospirtlər əsasında monoizopropil-alkila-

minotiokarbamid törəmələri sintez edilmiş və müxtəlif spektral metodlardan istifadə edərək onların quruluşları təsdiq edilmişdir.

Yeni sintez olunmuş bir çox birləşmənin enzim-izoenzimlər üzrə inhibitor, molekulyar dokinq, antikanser, antimikrob və antivirus xassələrinin geniş tədqiqi və bir çox geniş yayılan xəstəliklər (antikanser, Alzeymer, mədə xorası, qlaukoma) üzrə standart dərman maddələri ilə müqayisədə onların bioloji fəallığının kompüter qiymətləndirilməsi aparılmışdır.

Ədəbiyyat

1. V. Farzaliyev, A. Shuriberko, A. Sujayev, S. Osmanova, S. Gojayeva, K. Gahramanova, Synthesis, computational and biological activity of heteroatomic compounds based on phenylthiourea and acetophenone, Journal Molecular Structure, Elsevier, 2020, 1221(9), s. 128844-128853.

Qeyd: *Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant №EİF-ETL-2020-2(36)-16/11/4-m-11.*

V.M. Fərzəliyev, Z.T. İsrafilova,
L.S. Əliyeva, E.N. Qəribov, İ.Ə. Rzayeva
AMEA Aşqarlar Kimyası İnstitutu, Bakı, Azərbaycan
zubeydamammadova@gmail.com

SÜRTKÜ MATERİALLARININ İSTİSMAR XASSƏLƏRİNİ YAXŞILAŞDIRAN YENİ, KOMBİNƏ TƏSİRƏ MALİK ANTİOKSİDANTLARIN YARADILMASI

Məlum olduğu kimi karbohidrogenlərin oksidləşməsi radikal-zəncirvari şaxələnən prosesdir. Bunu sadələşdirilmiş şəkildə aşağıdakı kimi ifadə etmək olar:



Bu oksidləşmə prosesinin qarşısını almaq üçün elə birləşmələri (antioksidantları) daxil etmək lazımdır ki, onlar əmələ gələn radikallarla (R′ və ya RO′2) tez reaksiyaya girsin və ya radikal əmələ gətirməmək şərtilə hidroperoksidləri parçalasın.

Aşqarların antioksidant xassələri onların tərkibində olan funksional qruplardan asılı olduğundan, molekulunda müxtəlif növ funksional qruplar olan antioksidantların məqsədyönlü sintezi və onların təsir mexanizminin öyrənilməsi həm nəzəri, həm də təcrübi baxımdan elmi maraq kəsb edir [1].

Yuxarıda qeyd olunanları nəzərə alaraq tərkibində kükürd olan polifunksional antioksidantların məqsədyönlü sintezi, onların təsir mexanizminin və quruluşdan asılı olaraq antioksidant effektivliyinin öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri aparılmışdır.

Sintez olunmuş antioksidantlar oksidləşmə prosesində ilkin oksidləşmə məhsulu olan və yüksək reaksiyayagirmə qabiliyyətinə malik olan peroksid radikalları ilə reaksiyaya girir və əsas hissəsi bu reaksiyaya sərf olunur. Hidroperoksid əmələ gəldikdən sonra yerdə qalan hissəsi onu katalitik parçalayır və antioksidant kimi daha aktiv olan məhsullara çevrilir. Bir sözlə, bu növ antioksidantlar öz imkanlarını tam istifadə edə bilmir.

Bunu nəzərə alaraq aktiv maddələrin əvvəlcədən əmələ gəlməsi üçün tədqiq olunan antioksidantları oksidləşmə prosesinə daxil etməzdən əvvəl onlara hidroperoksidlə təsir etmişdirlər.

Müxtəlif nisbətdə götürülmüş antioksidant - hidroperoksid qarışığını və müxtəlif müddət saxlanılmış bu qarışıqları oksidləşmə prosesinə daxil etdikdə ilkin antioksidantla müqayisədə qarışığın antioksidant təsiri bir neçə dəfə artmışdır.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi tədqiq olunan birləşmələr kumilperoksid radikallarını dəf edərək oksidləşmə zəncirini qırır, kumilhidroperoksidlə oksidləşərək kumilhidroperoksidi katalitik olaraq parçalayan və peroksid radikallarını daha effektiv dəf edən maddələrə çevrilir. onlarin müasir aşqar paketlərində birgə tətbiqi sinergetik effektin yaranması hesabına indiyə qədər mövcud olan sürtkü materiallarının keyfiyyət göstəricilərini 10-15 dəfə artıra bilər. Odur ki, neft məhsullarının keyfiyyət göstəricilərini yaxşılaşdırmağa və istismar müddətini uzatmağa malik yeni üzvi birləşmələrin məqsədyönlü sintezinin optimal yollarının nəzəri-praktik əsaslarının işlənib hazırlanması bu layihə üçün gözlənilən ən mühüm nəticə olacaq.Bir sözlə tədqiq olunan maddələr kombinə təsirə malik antioksidantlardır.

Ədəbiyyat

1. Qəribov E.N., Rzayeva İ.Ə., Sadıxova N.D., Fərzəliyev V.M., Allahverdiyev M.Ə. Rodanidlərin antioksidləşdirici xassəsi // Bakı Universitetinin xəbərləri, Təbiət elmləri seriyası, (Bakı), 2009, №2, s.12-16.

A.M. Məhərrəmov, L.R. Vəliyeva, A.Z. Sadıqova,
N.N. Nəsirova, M.M. Qurbanova
Bakı Dövlət Universiteti
veliyevaleyla48@gmail.com

OPTİKİ AKTİV ETİL 6-AMİN-5-SİAN-2-METİL-4-ARİL -4H-PİRAN-3-KARBOKSİLATLARIN SİNTEZİ

Məlumdur ki, çoxkomponentli kondensləşmə reaksiyaları yaşıl kimyanın tələblərinə uyğun olduğu üçün üzvi sintezdə geniş tətbiq olunurlar[1]. Üçkomponentli kondensləşmə əsasında sintez olunan 4H-piranlar fizioloji və farmakoloji cəhətdən əlverişli heterotsiklik birləşmələr sinfidir[2]. Müxtəlif funksional qruplar saxlayan 4H-piranların tibbdə uğurla tətbiq olunmasını nəzərə alaraq, bizim tərəfimizdən enantioselektiv sintez əsasında onların optiki izomerlərinin sintezi həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, optiki aktiv piranlar və onların törəmələrinin asimmetrik sintezinə aid ədəbiyyatda çox az tədqiqat işləri qeydə alınmışdır[3]. Tədqiqat obyekti kimi müxtəlif aromatik aldehidlər, metilenaktiv birləşmə kimi asetsirkə efiri və malonnitril istifadə olunmuş və uyğun optiki aktiv etil-6-amin-5-sian-2-metil-4-aril-4H-piran-3-karboksilatlar sintez edilmişdir. Xiral üzvi katalizator kimi optiki aktiv α-aminturşu götürülmüşdür.

Reaksiyanın sxemi aşağıdakı kimidir:



Ar=p-$CH_3C_6H_4$ (I), o-ClC_6H_4 (II), p-$CH_3OC_6H_4$ (III), C_6H_5 (IV)

Katalizator=L-qlutamin turşusu

Reaksiyanın gedişinə və alınan maddənin təmizliyinə NTX nazik təbəqəli xromotoqrafiya metodu ilə (Sorbfil) nəzarət edilmişdir.

Sintez edilən optiki aktiv birləşmələrin (I-IV) xüsusi dönmə bucağı AUTOPOL-III polyarimetrində təyin olunmuşdur.

Ədəbiyyat

1. Ganem B., Acc. StrategiesforInnovationin Multicomponent Reaction Design; Chem. Soc. Rev.2009, 42,463.
2. Wang J. L., Liu D., Zhang Z. J. et al., "Structure-baseddiscovery of an organic compound that binds Bcl-2 protein and inducesapoptosis of tumorcells," Proceedings of the National Academy of Sciences of the United States of America, vol. 97, no. 13, pp. 7124–7129, 2000.
3. Noha M. Hilmy Elnagdi, NouraSaad Al-Hokbany., Organocatalysisin Synthesis: L-Proline as an Enantioselective Catalystin the Synthesis of Pyrana and Thiopyrans; Molecules 2012, 17, 4300-4312.

A.İ. İsmiyev, M. Abasova

Bakı Dövlət Universiteti

mahtababasova@gmail.com

DİALKİL 5-ASETİL-1,3-DİSİANO-4-HİDROKSİ-4-METİL-2,6-DİFENİLTSİKLOHEKSAN-1,3-DİKARBOKSİLATLARIN KASKAD SİNTEZİ

Müasir üzvi kimyanın inkişaf istiqamətlərindən biri asan əldə olunan xammal əsasında mürəkkəb quruluşlu birləşmələrin yeni, səmərəli sintez üsullarının işlənib hazırlanmasından ibarətdir. Bu nöqteyi nəzərdən metilenaktiv birləşmələrin istifadəsinə əsaslanan yanaşmalar xüsusi əhəmiyyət kəsb edir. Polifunksional reagentlər olan metilenaktivnitrillərkondensləşmə, karbo- və heterotsiklləşmə reaksiyalarına daxil olaraq çoxistiqamətli sintetik transformasiyaları şərtləndirirlər. Bu tədqiqatların nəticəsində formalaşan faktiki material üzvi sintez metodologiyalarını zənginləşdirməklə yanaşı kreativ üzvi maddələrə, o cümlədən tibbi-bioloji əhəmiyyətli birləşmələrə, optiki təmiz materiallara artan ictimai tələbat fonunda xüsusi dəyər qazanır.

Hazırki tədqiqat nəticəsində müəyyən edilmişdir ki, etanol mühitində NaOH-ın katalitik iştirakında benzaldehidinI, alkil-sianasetatların II, III və asetilasetonun IV qarşılıqlı təsiriprin-

sipcəyenikarbotsiklləşmə istiqamətində gedərək dialkil 5-asetil -1,3-disiano-4-hidroksi-4-metil-2,6-difeniltsikloheksan-1,3-dikarbok-silatların V,VI alınması ilə gedir:



Sintez edilən V,VI birləşmələrinin quruluşu İQ-, NMR spektroskopiyası və rentgen quruluş analizi üsulları ilə birmənalı təsdiq edilmişdir.



Şəkil 1. Dietil 5-asetil -1,3-disiano-4-hidroksi-4-metil-2,6-difeniltsikloheksan-1,3-dikarboksilatın V molekulyar quruluşu



Şəkil 2. Diizopropil 5-asetil -1,3-disiano-4-hidroksi-4-metil-2,6-difeniltsikloheksan-1,3-dikarboksilatın VI molekulyar quruluşu

N.M. Nəzərov, A.Z. Xəlilova,
N.M. Qriqoryeva, C.C. Əhmədova
AMEA akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
nazarov-nazar@rambler.ru

DİHİDROPİRİMİDİN-TİONLAR ƏSASINDA TƏRKİBİNDƏ TRİ FENİL RADİKALI SAXLAYAN ÜZVİ BİRLƏŞMƏLƏRİN SİNTEZİ

Pirimidin-tion törəmələri öz geniş yayılmış potensial bioloji fəaliyyətinə və tibbi tətbiqlərinə görə olduqca maraqlıdır.[1] Belə ki, onların kimyəvi xassələri müəyyən qədər tədqiq edilmişdir.[2]

Yeni maddənin əmələ gəlməsi sərbəst şəkildə ayrılması mümkün olmayan aralıq maddə olan biquanidotiokarbamidin alınması ilə baş verir. Ehtimal edilir ki, bu səbəbdən reaksiya nəticəsində trifenil birləşmələri alınır. Sintez edilmiş yeni birləşmələr havaya qarşı sabitdir, sirkə turşusunda kristallaşır və suda həll olmur.



$R_1 = H, R_2 = CH_3$

$R_1 = COOCH_2CH_3, R_2 = CH_3$

$R_1 = COCH_3, R_2 = H$

Aparılan reaksiyalar etilasetat mühitində yerinə yetirilmişdir. İlkin nəticələrdən məlum oldu ki, etilasetat mühitinin seçilməsi alınan maddənin çıxımına təsir edir. Sintez olunan maddələrin təmizliyi nazik təbəqəli xromotoqrafiya ilə yoxlanılmışdır. Bu birləşmələr ağ toz halında kristallardır.

Ədəbiyyat

1. Nəzərov N.M., Qəribov E.N., Sucayev Ə.R. Nikkel(II) xlorid heksohidrat əsasında Metil 4-(2-hidroksi (-H)-4-metilfenil (-H))-6-metil -2-tiokso-1,2,3,4-tetrahidropirimidin-5-karboksilatların alınması və onların bioloji fəal maddə kimi təyini.1st İnternational Scientific Conference of youngscientists and specialists fundamental və tətbiqi elmlərin (yer,texnika və kimya elmləri) aktual problemlərinin həllində multidissiplinar yanaşmanın rolu. Bakı-2014. s. 293-295
2. Fərzəliyev V.M., Nəzərov N.M., Sucayev Ə.R.. Tetrahidropirimidintion törəmələrinin sintezi və xassələrinin tədqiqi. Sumqayıt Dövlət Universiteti Elmi xəbərləri Sumqayıt-2017 səh.33-37

S.İ. Məmmədova, A.İ. İsmiyev, K.E. Hacıyeva
Bakı Dövlət Universiteti
memmedovaseadet884@gmail.com

ETİL-1-ASETİL-3-(4-XLOROFENİL)-2,2-DİSİANTSİKLOPROPAN KARBOKSİLATIN SİNTEZİ

Məlumdur ki, malon turşusu nitrillərinin kondensləşmə reaksiyalarında üçüncü komponentlərin struktur variasiyaları reaksiyaların prinsipcə fərqli istiqamətlərdə reallaşması üçün imkanlar

açır [1,2]. Malononitrilin aromatik aldehidlərlə kondensləşmə reaksiyalarında bir çox reagentlər istifadə edilsə də az tədqiq edilmiş və ya ümumiyyətlə tədqiq edilməmiş qarşılıqlı təsirlər mövcuddur. Təqdim olunan işdə biz ədəbiyyatda məlum olmayan malonodinitril, 4-xlorbenzaldehid və etil 4-xlor-3-oksobutanoatın qarşılıqlı təsirinə əsaslanan üçkomponentli kondensləşmə reaksiyasını tədqiq etmişik. Reaksiyanın əsasi komponenti olaraq NaOH-inekvimolekulyar miqdarından isitifadəolunmuşdur.



Müəyyən edilmişdir ki, reaksiya nəticəsində 72 %-lə etil 1-asetil-3-(4-xlorfenil)-2,2-disiantsiklopropankarboksilat alınır. Reaksiya məhsulunun quruluşu rentgen quruluş analizi İQ, NMR H1 və 13C spektroskopiyası üsulları ilə tam təsdiq olunmuşdur.



Şəkil 1. Etil 1-asetil-3-(4-xlorfenil)--2,2-disiantsiklopropan karboksilatın molekulyar quruluşu

Ədəbiyyat

1. Elinson M.N., Feducovich S.K., Lizunova T.L., Nikishin G.I. Elec-trochemical transformation of malononitrile and carbonyl compounds into functionally substituted cyclopropanes: electrocatalytic variant of the Wideqvist reaction// Tetrahedron, 2000, v.56, № 19, p.3063-3069
2. Elinson M.N., Feducovich S.K., Stepanov N.O., Vereshchagin A.N., Nikishin G.I. / A new strategy of the chemical route to the cyclopropane structure: direct transformation of benzylidenemalononitriles and malononitrile into 1,1,2,2-tetracyanocyclopropanes // Tetrahedron 2008, 64, p.708-713

Ə.Ə. Qədirov, Ə.K. Kazımzadə, E.Ə. Nağıyeva
AMEA akademik Ə.M.Quliyev adına
Aşqarlar Kimyası İnstitutu, Bakı ş. Azərbaycan
aki05@mail.ru

FTALİMİDİN AROMATİK AMİNLƏRLƏ TÖRƏMƏLƏRİNİN SİNTETİK YAĞLARIN OKSİDLƏŞMƏSİNƏ QARŞI TƏSİRİ

Tədqiqatlar göstərmişdir ki, sərt şərtlər altında işləyən qaz-turbinli mühərriklərin istismar müddətinin uzadılması və etibarlı işinin təmin edilməsi üçün sintetik sürtkü yağların xassələrinə təsir edən yüksək temperatur amili əsas şərtlərdəndir. Çünki, yüksək temperaturlarda sürtkü yağlarının oksidləşməsi nəticəsində onun istismar xüsusiyyətləri, molekulunun quruluşu tədricən dəyişikliyə məruz qalırvəsistemdəpolimerləşmə reaksiyaları baş verir ki, bu da öz növbəsində yağlama funksiyasının aradan qalxmasına gətirib çıxarır. Bu səbəbdən, sürtkü yağlarının dayanıqlı baza əsası ilə yanaşı, aşqarların da seçilməsi vacib məsələlərdəndir[1].

Təqdim olunan tezisdə tədqiqat obyekti olaraq ftalimidinN-əvəzli törəmələri maraq kəsb etmişdir.

Ftalimid (o-ftal turşusunun imidi,izoindol-1,3-dion) 238^{0}C-də əriyən rəngsiz kristal maddədir. Molekulunda N-H qrupu çox güclü polyarlaşdığındanqeyri - adi xassələr göstərir. Buna görə də,ftalimidin törəmələri bir çox tədqiqatçıların diqqətini cəlb etmiş, eyni zamanda elm və texnikanın bir çox sahələrində geniş praktik tətbiqini tapmışdır[2].

Ftalimidin N-əvəzli törəmələrindən məqsədəuyğun birləşmələr olaraq tərəfimizdən Mannix reaksiyası üzrə aşağıdakı kimyəvi tənliklərlə 2 mərhələdə alınmışdır:



R=p-$C_2H_5OC_6H_4$-; p-HOC_6H_4-; o-HOC_6H_4-; $C_6H_5CH_2CH_2$-

Əvvəlcə, N-oksimetilftalimid (1) sintez edilmiş [3], sonra isə ekvimolyar nisbətdə birli aromatik aminlərlə qarşılıqlı təsirdə ola-

raq N-(arilaminometil)-ftalimidlər(2) sintez edilmişdir.

N- (arilaminometil) -ftalimidlər sulu spirtdə asan və bir çox hallarda reaksiya mühitindən yüksək dərəcədə təmiz və yaxşı çıxımla çökməklə alınırlar.

Mannix reaksiyası üzrə alınan reaksiya məhsulları Kristal maddələr olub, molekul quruluşları element analizi və İQ-spektroskopiya metodu ilə təsdiq olunmuşdur.

Birləşmələr üzvi həlledicilərdə və sintetik sürtkü yağında yaxşı həll olurlar.

N- (arilaminometil) -ftalimidlərin aşqar kimi sintetik sürtkü yağıolan pentaeritritefirində (ПЭЭ) yoxlanılmışdır. Sınaqtesti 27797-79 nömrəli ГОСТ-a uyğun standart metodla 2250C-də 20 saat ərzində aparılmışdır.

Alınanilkin laboratoriya sınaq nəticələrinə görə müəyyən edilmişdirki yağ nümunələrinin oksidləşməsi zamanı istismar xassələrinin pisləşməsinə qarşı, tədqiq edilən aşqarlar qənaətbəxş şəkildə təsir etmişdir. Metallövhəciklərin səthində korroziya olmamışdır.

Ədəbiyyat

1. Общая органическая химия. Т.4.Пер с англ., М.: Химия, 1983,с. 468.
2. Бюлер К., Пирсон Д. Органические синтезы. Часть 2., Пер. с англ., Изд-во «Мир», М., 1973, с. 424
3. Кулиев А.М. Химия и технология присадок к маслам и топливам. Л.:Химия,1985. 312с.

J.Sh. Hamidova, L.K. Kazimzadeh, E.I. Hasanova, E.U. Isakov

Institute of Chemistry of Additives

named academician A.M.Guliyev of ANAS

c.hamidova@mail.ru

THE TRIPLE COPOLYMER OF ALLYL ESTER OF CAPRIC ACID

Positive results of research include synthesis of allyl esters of higher carbonic acids (C6, C8, C10, etc.) and obtaining polymers with vinyl monomers as stabilizers and research as a viscosity additive for lubricants, gives grounds to say that it is a research work of both

scientific and practical importance [1-2].

The present paper discusses the synthesis of triple polymer of allyl ether ofcapric acid with butyl methacrylate and styrene and its study as a viscous additive with a more effective effect on lubricants. Our goal in synthesizing a tripartite polymer is to combine the beneficial properties of different viscosities in one additive. Thus, the presence of a styrene fragment in the polymer chain provides stability, and the presence of a butyl methacrylate fragment provides depressive properties.

Allylcaprinate (AK) is obtained by reacting kapron acid (n-octane acid) with allyl alcohol by a known esterification reaction. The combined polymerization reaction of the synthesized allyl ether - allylcaprinate with butylmethacrylate (BM) and styrene (St) is carried out in the presence of a radical initiator (benzoyl peroxide) in the temperature range of 75-85°C for 5-6 hours. The effect of monomer ratio, temperature and amount of initiator on the process was studied, the reaction conditions providing high yield and molecular weight value were determined: which under these conditions, co-polymers with a molecular weight of 8000-10000 are formed.

The structure of the joint polymer was studied by IR-spectroscopy. The absorption band 1780 cm^{-1} observed in the spectrum corresponds to the ester group, and the absorption band 1390 cm^{-1} corresponds to the methacrylate link $-CH_3$ group. Absorption bands observed in the range of 750-850 cm^{-1} confirm the presence of groups - (CH_2) n (when n>4). The absorption band 1750 cm^{-1} corresponds to the benzene ring in the styrene fragment. Thus, it has been confirmed that a true combined polymer with alternating manganese monomers in the macromolecular chain has been obtained.

The synthesized triple joint polymer is a light yellow viscous substance that is easily soluble in synthetic oils. The combined polymer has been studied as a viscosity additive in essential oils. It was found that when 1,5-3,0% is added to a complex polymer essential oil with a molecular weight of about 10000, the value of the viscosity index of oils increases by 15-18 units, depending on the nature of the base oil. According to these parameters, the triplet polymer synthesized is on a par with known viscosity additives (polyalkylmethacrylates, etc.) and is much superior to them in terms of resistance to thermal effects.

Thus, the triple polymer of allyl ether of capric acid (allylcap-

rinate), butyl methacrylate and styrene is an effective viscosity additive that improves high viscosity, depressant properties, as well as the thermal resistance of complex essential oils.

Reference

1. Ahmadov A.I., Gamidova D.Sh., Mekhtieva S.T. Synthesis of allylcaproate copolymers with styrene and study of these compounds as viscous additives to petroleum oils // Russian Journal of Applied Chemistry, 2013, Volume 86, issue 6, pages 939-941.
2. Кязимзаде Л.К., Гамидова Д.Ш., Гасанова Э.И. Соолигомеры сложных аллиловых эфиров как вязкостные присадки // Международный научный журнал «Молодой ученый», 2019, №52 (290), с. 309-312.

A.M. Məhərrəmov, M.Ə. Axundova, S.S. Babayev, L.Y. Qafarova, G.M. Mirbağırova, A.T. Hüseynova

Bakı Dövlət Universiteti

afethüseynovabdu@ mail.ru

1,2-AMİNPROPANTİOLLAR ƏSASINDA DİAMİN-DİSULFİDLƏRİN SİNTEZİ

1,2 –Amintiolların bioloji aktivliyi onların quruluşundan və tərkibində hansı funksional qrupların olmasından asılıdır. Amintiolların mürəkkəb efirləri olan tifen və diprofen preparatları tibbi praktikada geniş tətbiq olunur [1,2]. Amintiollar bir sinton kimi tibbi və sintetik kimyada fizioloji aktiv birləşmələrin sintezi üçün əhəmiyyətli birləşmələr sinfinə aiddir. [3]Onlardan bəziləri (sistein, homosistein) tibbdə dərman preparatları kimi tətbiq edilir. Sintetik amintiol, amifostinradioprotektor kimi xərcəng xəstəliyində radioterapiya və kimyəviterapiyada geniş tətbiq edilir. [4]

Aminpropantiolların sintez edilməsi və onların reaksiyagirmə qabiliyyəti sahəsində tədqiqatları davam etdirərək 1,2 aminpropantiollarındimetilsulfoksidin köməyi ilə diamindisulfidlərə çevrilməsi tədqiq edilmişdir. Bütün yuxarıda deyilənləri nəzərə alaraq, əvvəlcə sintez etdiyimiz bəzi 1,2-aminopropantiolların dimetilsulfoksidlərlə qarşılıqlı reaksiyasından diamindisulfidlər alınmışdır[5] :



(1-2)

1,2_Aminotiollardan diamindisulfidlərin alınması reaksiya mexanizminin sxemi aşağıdakı kimi ehtimal edilir:





Birinci mərhələdə az dayanıqlı aralıq məhsul alınır. Sonradan ikinci amintiolun molekulunun təsiri ilə diamindisulfid, dialkilsulfid və su alınır.

Reaksiya gedişinə nazik təbəqəli xromitoqrafiya ilə nəzarət edilmiş. quruluşu İQ və1H NMR fiziki-kimyəvi tədqiqat metodları ilə tətbiq edilmişdir.

Ədəbiyyat

1. Vişni K.R., RaOP.S, Ashok D. An efficient procedure forthepreparation 2,3,-dihydro-1,5-benzothiazepines under acetylatingconditions // Synth. Commun. 2000, V. 3 0, p 253
2. Westland R, Maux M., Holmes L, Godey R, GrenanM.Effect of the sulfer-covering group on the antiradiation on actining of substifed 2-aminethanefiol // J.Med .Chem.1972, V.15, № 9, p.968-973
3. Магеррамов А.М., Аллахвердиев М.А., Гусейнова А.Т. Кулиев С.А., // Аминотиолы и их производные Из-во Бакинского униврситета 2007, с 147

4. Hüseynova A.T., Kaya R., Taslimi P., Farzaliyev V., Məmmədyarova X., Sucayev A. at all Design synthesis, characterization, biological evaluation and molecular dosking studies of novel 1,2-aminopropanthiols substiteted derivetivesas selective carbonic anhydorase, asetylcholinesterase and α-qlycosidoseenzeymesin inhibitors// Journal of Biomolecular structure and Dynamies. 2020. P2-13
5. Hüseynova A.T. 1,2-Aminotiolların diamindisulfidlərə çevrilməsi.// Bakı Universitetinin xəbərləri 2006, № 1 s. 11-16

A.M. Məhərrəmov, M.Ə. Axundova, S.A. Fətiyeva, S.S. Babayev, G.M. Mirbağırova, A.T. Hüseynova
Bakı Dövlət Universiteti
afethüseynovabdu@ mail.ru

AMİNTİOLLAR ƏSASINDA 1,2-AMİNTİOEFİRLƏRİN ALINMASI

1,2-Amintiolların bioloji aktivliyi onların quruluşundan və tərkibində hansi funksional qrupların olmasından asılıdır. Amintiolların mürəkkəb efirləri olan tifen və diprofen preparatları tibbi praktikada geniş tətbiq olunur. [1,2]. Amintiollar bir sinton kimi tibbi və sintetik kimyada fizioloji aktiv birləşmələrin sintezi üçün cox əhəmiyyətli birləşmələr sintezinə aiddir.[3].Onlardan bəziləri (sistein, homosistein) tibbdə dərman preparatları kimi tətbiq edilir. Sintetik amintiol, amifostinradioprotektor kimi xərcəng xəstəliyində radioterapiya və kimyəvi terapiyada geniş tətbiq edilir.[4].

Yuxarıda göstərilənləri, eyni zamanda 1,2-amintiolların quruluşu ilə funksional xassələri arasındakı asılılıqları öyrənmək üçün bizim tərəfimizdən uyqun tiiranların müxtəlif aminlərlə qarşılıqlı təsirindən bir neceamintiollar sintez edilmişdir:



burada R=H, $R_1 = C_6H_5$ (1)

R=H, $R_1 = C_6H_4\text{-}CH_3$ (2)

1,2-Amintiolların sirkə anhidridi ilə qarşılıqlı təsirindən

1,2-amintioasetatlar alınmışdır:



Adətən reaksiya ekzotermikdir və reaksiya qarışığının temperaturu 45-50^{0}C-yə qədər qalxır. Bu temperaturda reaksiya 1 saata qədər qarışdırılır. 1,2-Amintiolların asilləşməsi ekzotermik olduğundan reaksiya soyutmaqla aparılır.

Sintez edilmiş 1, 2-amintioasetatlar rəngsiz mayedirlər, suda həll olmrlar, ancaq üzvi həlledicilərdə yaxüı həll olurlar.

Reaksiya gedişinə nazik təbəqəli xromatoqrafiyaiə nəzarət edilmiş, quruluşu İQ və H1 NMR fiziki- kimyəvi tədqiqat metodları ilə təsdiq edilmişdir.

Ədəbiyyat

1. Vişni K.R., RaO P.S, Ashok D. An efficient procedure for the preparation 2,3,-dihydro-1,5-benzothiazepines under acetylating conditions // Synth. Commun. 2000, V. 3 0, p 253
2. Westland R, Maux M., Holmes L, Godey R, GrenanM.Effect of the sulfer-covering group on the antiradiation on actining of substifed 2-aminethanefiol // J. Med .Chem.1972, V.15, № 9, p.968-973
3. Магеррамов А.М., Аллахвердиев М.А., Гусейнова А.Т. Кулиев С.А.,// Аминотиолы и их производные Из-во Бакинского униврситета 2007, с 147
4. Hüseynova A.T., Kaya R., Taslimi P., Farzaliyev V., Məmmədyarova X., Sucayev A. at all Design synthesis, characterization, biological evaluation and molecular dosking studies of novel 1,2-aminopropanthiols substitetedderivetives as selective carbonic anhydorase, asetylcholinesterase and α-qlycosido seenzeymesin intibitors // Journal of Biomolecular structure and Dynamies. 2020. P2-1

M.A. Akhundova, LY. Qafarova,
S.S. Babayev, A.T. Hüseynova
Bakı Dövlət Universiteti
afethüseynovabdu@ mail.ru

THIIRANES AND THEIR AMINE DERIVATIVES

Aminothiols and their derivatives also exhibit a variety of other physiological activity.These compounds can be used to crate blockers, autoimmunomodulators, antiseptics and hypomicimic agents. They can serve as key compounds for the synthesis of various nitrogen and sulfur-containing heterocyclics, allowing them to be widely used as drugs in pharmacological practice. Aminothiols are the sinton for fine organic compounds in the making physiologically active compounds.[1].

Increase of fuel oils and lubricants stability towards oxidation during the long time preservation and exploitation-one of the actual problems of modern chemmotology. The only way of lubricants and oils stabilization is the addition of the antioxidative additives.[2,3]. The different substituted aromatic 1,2-aminothiols have bcen synthesized and the relationship between their strueture and antioxidative properties was investigated.In generally the obtai-ned compounds can be presented as:



1,2-Aminothios have been obtained by the interaction ofthiiraneswiht different substituted aromatic amines in the followinq conditions: thiiran:amine =1:2; reactiontime 12 hours ;temperatuere 90-1000C.The reactionwascarriedoutinthesea-ledtube. Theyieldwas 50-80 %. On thebasis of aminithiolsthenewperfluor-containing 1,2-aminopropanthilos havebeensynthesized:



Structures of she syntesized compounds hawe been confi-rmed by IK- and 1H NMR spektroscopyanalyis; puritybyelemen-talanaly-iss and thin-layerchromatoqraphy.

References

1. Магеррамов А.М., Аллахвердиев М.А., Гусейнова А.Т. Кулиев С.А., // Аминотиолы и их производные Из-во Бакинского униврситета 2007, с 147
2. Huseynova A.T.. Synthesizi and investigation of somenew 1,2-Aminothioly derivatives., 20175th Rostosker İnternational Conference: University of Rostock, Germany. 17-18 july, 2017.
3. Huseynova A.T.. Novelperfluorinutedaminothiols as per-spectiveoiladditives and Liqands.2ndintrnationalConference an Pure and Applied-Science, July 5 , 2016. İstanbul, Turkey.

M.Ə. Axundova, S.S. Babayev,
S.A. Fətiyeva, A.T. Hüseynova
Bakı Dövlət Universiteti
afethüseynovabdu @ mail.ru

MÜXTƏLİFƏVƏZLİ DİTİANLARIN SİNTEZİ, XASSƏLƏRİ VƏ TƏDQİQİ

Tiranlar bir sinton kimi müxtəlif elektrofil və nukleofil re-a-gentlərlə qarşılıqlı təsirdə olaraq, coxfunksiyalı mühüm əhəmiyyət kəsb edən birləşmələr əmələ gətirir.Tiiranlarınaminli törəmələri-1,2-amintiolların mürəkkəb efirləri olan tifen və diprofen preparatları tibbi praktikada geniş tətbiq olunur.[1,2].Bu sinif birləşmələr həmçinin bir sinton kimi tibbi və sintetik kimyada fizioloji aktiv birləşmələrin sintezi üçün əhəmiyyətli birləşmələr sinifinə aiddir. [3].Bu sinif birləşmələr tibbi praktikada bir sıra dərman pre-

paratlarının, polimer üçün inqibitorların, eləcə də sürtgü yağlarını oksidləşmədən, mikrobioloji dağılmadan, sürtünmə və yeyilmədən qoruya bilən aşqarların alınmasında bir sinton rolu oynayır.

Müxtəlifəvəzli tiranların "Dopinq effekti" şəraitində dimerləş-məsi nəticəsində yeni ditiianlar sintez edilmişdir. Sintezin ümumi sxemini aşağıdakı kimi göstərmək olar :



R-CH_3COO^- , $C_6H_5COO^-$; 2 - Cl -$C_6H_4COO^-$, CH_3O^-, CH_3-

Sirkə turşusunun katalitik təsirilə litium-perxlorat iştirakında reaksiya 1-2 saat ərzində başa çatır və tiiranlardan 75-85 % cıxım-lı-ditiranlar alınır. Nazik təbəqəli xromotoqrafiya ilə reaksiyanın ge-dişinə nəzarət edilir.

Sintez edilmiş birləşmələrin quruluşu İQ və 1H NMR fiziki-kimyəvi tədqiqat metodları ilə təsdiq edilmişdir.

Ədəbiyyat

1. Vişni K.R., RaO P.S, Ashok D. An efficientprocedureforthepreparation 2,3,-dihydro-1,5-benzothiazepines underacetylatingconditions // Synth. Commun. 2000, V. 3 0, p 253
2. Westland R, Maux M., Holmes L, Godey R, GrenanM.Effect of the sulfer-covering group on the antiradiation on actining of substifed 2-aminethanefiol // J. Med .Chem.1972, V.15, № 9, p.968-973
3. Магеррамов А.М., Аллахвердиев М.А., Гусейнова А.Т. Кулиев С.А., // Аминотиолы и их производные Из-во Бакинского униврситета 2007, с 147
4. Hüseynova A.T., Kaya R., Taslimi P., Farzaliyev V., Məmmədyarova X., Sucayev A. at all Design synthesis, oharacterization, biological evaluation and molecular dosking studies of novel 1,2-aminopropanthiols substitetedderivetives as selective carbonic anhydorase, asetylcholinesterase and α-qlycosid oseenzeymesinintibitors// Journal of Biomolecular structure and Dynamies. 2020. P2-13
5. Hüseynova A.T., MəhərrəmovA.M., Allahverdiyev M.Ə. Pat. 20020023 (Azərbaycan) 2002., 1-(2-xlorfenilamin)-3-metoksi-2- propantiol sürtkü yağlarına antioksidləşdirici aşqar kimi.

S.V. İsmayılova, E.H. Məmmədbəyli, G.Ə. Hacıyeva
AMEA Neft-kimya Prosesləri İnstitutu
S.A. Muradova, V.H. İsgəndərov
Azərbaycan Tibb Universiteti
ismayilova_s_ch@mail.ru

3-METİL-1-DİETİLAMİNOMETOKSİTSİKLOHEKSANIN SİNTEZİ VƏ BİOLOJİ FƏALLIĞININ TƏDQİQİ

Tərkibində azot və bəzi funksional qruplar saxlayan birləşmələr yüksək təsirə malik dərman preparatların, yağlara, yanacaqlara antimikrob və antioksidant təsirli aşqarların, kənd təsərrüfatında istifadə olunan üzvi birləşmələr kimi istifadə olunur. Mannix reaksiyası bu cür birləşmələrin alınmasında vacib və perspektivli metodlardan biridir. Mannix əsasları tibbidə antimikrob, vərəm, xərçəng və malyariya əleyhinə dərman preparatları kimi istifadə olunur. Farmakor xassəli tsikloheksan fraqmentinə malik Mannix əsaslarının sintezi və bioloji xassələrinin öyrənilməsi nəzəri və praktiki cəhətdən çox aktualdır. Tsikloheksan fraqmentli birləşmələr dərman preparatı kimi soyuqdəymədə, revmatizmdə, Parkinson xəstəliyində, diş və əzələ ağrılarında, xərçəng əleyhinə istifadə olunur. Bu birləşmələr həmçinin kosmetologiyada, allergik və dəri xəstəliklərində də istifadə edilir.

Təqdim olunan iş 3-metiltsikloheksanol, formaldehid və dietilamin arasında Mannix reaksiyası əsasında 3-metil-1-dietilaminometoksitsikloheksanın sintezi və bioloji fəallığının öyrənilməsinə həsr olunmuşdur. Reaksiya aşağıdakı sxem üzrə gedir:



Reaksiya 78–80°C temperaturda, 4–5 saat ərzində, benzol mühitində ilkin maddələrin bərabər mol nisbətində alınır. Çıxım 83% təşkil edir. Sintez olunmuş maddə rəngsiz, spesifik qoxulu mayedir, suda həll olmur, ancaq üzvi həlledicilərdə (etanol, aseton, benzol, CCl4 və b.) yaxşı həll olur. Alınmış maddənin quruluş və tərkibi element analizi, İQ, 1H və 13C NMR spektroskopiya vasitəsilə təsdiq olunmuşdur.

Sintez olunmuş birləşmənin ardıcıl durulaşdırma üsulu ilə antimikrob xassələri öyrənilmişdir. Test-kultur kimi insan orqanizminin normal mikroflorasına daxil olan bakteriya nümayəndələrindən E.Coli, P.Aeruginosa, K.Pneumoniae, S.Aureus, eləcə də opportunistik mikoztörədicilərindən biri hesab edilən Candidaalbicans-ın laborator ştamları götürülmüşdür. Qidalı mühit kimi bakteriyalar üçün ətli-peptonlu bulyon, C.albicans üçün Saburomühitindən istifadə edilmişdir. Həmçinin sintez olunmuş birləşmələrin minimal inhibisiya konsentrasiyası (MİK) və minimal mikrobosid konsentrasiyası (MMK) qidalı bulyonda ardıcıl durulaşma üsulu ilə təyin olunmuşdur. Qidalı mühit kimi bakteriyalar üçün ətli-peptonlu bulyon, C.albicans üçün şəkərli bulyondan istifadə edilmişdir. Beləliklə, sintez olunmuş 3-metil-1-dietilaminometoksitsikloheksan praktikada işlədilən bakterisid preparatlara (etanol, rivanol, karbol turşusu və furasilin) nisbətən daha yüksək antimikrob xassəyə malikdir və onu antiseptik preparat kimi tövsiyə etmək olar.

Ədəbiyyat

1. Мамедбейли Э.Г., Исмайылова С.В., Кочетков К.А., Гаджиева Г.Э. ЖОрХ, 2019, т. 55, № 11, с. 1695–1702.
2. Subramaniapillai S.G. Mannichreaction: A versatile and convenientappr oachtobioactiveskeletons. Journal of Chemical Sciences, 2013, Vol. 125, N 3, pp. 467-482.

K.R. Nadirova, A.M. Məhərrəmov,
X.C. Qarazadə, N.Q. Şıxaliyev
Bakı Dövlət Universiteti
nadirova.kusver@mail.ru

POLİVALENTLİ YOD ÜZVİ BİRLƏŞMƏLƏRİN SİNTEZİ

Yodobenzolun sadə xlorlaşdırılması ilə dixloryodo benzolun əmələ gəlməsi ilk dəfə 1886-cı ildə Alman kimyaçısı Wilgerodt tərəfindən təsvir edilmişdir[1]. O vaxtdan bəri polivalent yod kimyası sürətlə inkişaf etmiş, və yodun üzvi törəmələri üzvi sinezdə geniş istifadə olunan çox qiymətli reaktivlərə çevrilmişdir.Polivalent yod birləşmələrinin sintetik tətbiq sahələri, struktur xüsusiyyətləri, xü-

susən yod atomundakı karbon ligandlarının sayı və heteroatomluligandlarınelekromənfilii və nukleofuqluğuiləmüəyyən edilir.

Üç valentli yod birləşmələrinin əsas reaksiyalarından biri də onların olefinlər ilə reaksiyasıdır.Bu üçvalentli yod birləşmələrinin çox aydın şəkildə elektrofil xassə göstərməsi ilə əlaqədardır və gözləmək olar ki bu yod birləşmələri doymamış karbohidrogenlərlə yüksək reaksiya qabiliyyətinə malik olacaqdır.Misal olaraq ikiqat rabitənin oksidləşməsi nəticəsində oksiranlarinalinmasini göstərmək olar. Bütünbunları nəzərə alaraq tərəfimizdən üçvalentli yod birləşməsi sintez edilmiş və onun alkenlərlə reaksiyası tədqiq edilmişdir[2].

Elmi heyətimiz tərəfindən sintez edilmiş aktivləşdirilmiş ikiqat rabitəsi olan, dixloralkenlərin oksidləşmə reaksiyaları aparılmış və müvafiq oksiran birləşmələri sintez edilmişdir.



1,1-dixloro-2-metil-propen-1 benzol **2,2-dixloro-3-metil-3-feniloksiran**



R=CH_3, C_4H_9, Ph, CF_3





R=H, Alk, Ar, tsikloalkil

Ədəbiyyat

1. C.Wilgerodt.Ubereinigearomatischejodidchloride// J. Prakt. Chem. 1886, V.33, P. 155-160
2. Moriarty R.M., Gupta S.C., Hu H., Berenshot D.R., White K.B. Oxygene atom transfer fromiodosobenzenetoketenes, α-ketocarboxylicacids, and ketones // J.Am.Chem.Soc. 1981. V. 103. № 3. P. 686-688.

A.M. Məhərrəmov, L.R. Vəliyeva, A.Z. Sadıqova,
A.R. Sucayev, M.M. Qurbanova
Bakı Dövlət Universiteti
veliyevaleyla48@gmail.com

ETİL 6-AMİN-5-SİAN-2-METİL-4-ARİL -4H-PİRAN-3-KARBOKSİLATLARIN ANTİOKSİDANT XASSƏLƏRİNİN TƏDQİQİ

Antioksidant xassələri tədqiq etmək məqsədilə tərəfimizdən aşağıda göstərilən etil-6-amin-5-sian-2-metil-4-aril-4H-piran-3-karboksilatlar (1-8) sintez edilmişdir:



Sintez olunmuş birləşmələrin antioksidant təsir mexanizmini müəyyən etmək üçün onların kumol peroksid radikalları və kumol hidroperoksidləri ilə reaksiyasının kinetikası araşdırılmışdır və müəyyən edilmişdir ki, tədqiq olunan birləşmələr (1-8) karbohid-

rogenlərin oksidləşməsinin perspektivli inhibitorları kimi görünür. Onlardan bəziləri kumol peroksid radikalları və katalitik olaraq kumol hidroperoksidlərin parçalanması ilə oksidləşdirici reaksiyaların zəncirlərini qıran birləşmiş təsirli antioksidantlardır.

Tədqiq olunan birləşmələrin bu və ya digər dərəcədə kumolun oksidləşməsiniinhibə etdiyi aşkar edilmişdir (Şəkil 1-2)



Şəkil 1. Sintez olunmuş birləşmələrin iştirakı ilə kumolun kinetik əyriləri: T = 1100C, VO_2 oxsigenin həcmi (ml), τ vaxt (dəq);

[InH]= 0 (1I) [InH]= 5·10-4mol/l.



Şəkil 2. Sintez olunmuş birləşmələrin iştirakı iıə ilkin kumol oksidləşməsinin kinetik əyriləri 1-8: T = 60ºC; VO_2 oksigenin həcmi (ml), τ vaxt (dəq);

[InH]=0 (1') [InH]=5·10-4 mol/l.

S.İ. Məmmədova, A.İ. İsmiyev, K.E. Hacıyeva
Bakı Dövlət Universiteti
memmedovaseadet884@gmail.com

MALONONİTRİL, AROMATİK ALDEHİDLƏR VƏ N-METİL-1-(METİLTİO)-2-NİTROETENAMİN ƏSASINDA ÜÇKOMPONENTLİ KONDENSLƏŞMƏ REAKSİYASI

Son on ildə keten N,S-asetalların reaktiv tərəflərinə elektrofil və nukleofil reagentlərin həmləsi ilə reallaşan çoxkomponentli kondensləşmə reaksiyaları üzrə tədqiqatlar ortaya çıxmışdır[1].Tsiklik N, S-asetalların çoxkomponentli reaksiyalarının öyrənilməsinə baxmayaraq qeyri-tsiklik N, S-asetal ilə reaksiyalar tədqiq edilməmişdir. Bununla yanaşı, əlbətdə ki, azot nükleofil mərkəzinin gücünə görə qeyri-tsiklik N, S-asetallartsiklik N, S-asetallardan fərqlənir. Tsiklik və qeyri-tsiklik N,S-asetallar arasında azot mərkəzinin nukleofillikləri fərqini nəzərə alaraq, bir sıra aromatik aldehidlər və malononitril ilə N-metil-1- (metiltio)-2-nitroetenaminin reaksiyalarını həyata keçirmişik. Bu tədqiqat işində məqsədimiz N, S-asetalların quruluşunun reaksiyanın gedişinə təsirini araşdırmaq idi. Tədqiqatımızın ilkin mərhələsində N-metil-1-(metiltio)-2-nitroetenaminin benzaldehid və malononitrillə müxtəlif kataliza-torlar iştrakında reaksiyası aparılmışdır. Reaksiya şəraiti optimallaşdırıldıqdan sonra, bu çoxkomponentli kondensləşmə reaksiyasında müxtəlif aldehidlərdən istifadə edilmişdir:



I R=C_6H_5; II R=4-MeC_6H_4 ;III R=4-$CH_3OC_6H_4$;IV R=4-FC_6H_4
V R=2-$CF_3C_6H_4$;VI R=4-CNC_6H_4 ;VII R=2-C_4H_3S

I - VII

1H,13C NMR və kütlə spektrometriyası əsasında reaksiya məhsullarının quruluşu təsdiq edilmişdir.

Ədəbiyyat

1. Stalling T, Brockmeyer F, Kröger D, Schwäblein A, Martens J.2,5-dihydro-1,3-thiazoles as scaffolds in the synthesis of O,N-diacylO,N-acetals in a one-pot reaction// Z. Naturforsch. 2012, 67b, p.1045 – 1055

G.M. Abdullayeva, İ.A. Bünyadzadə, R.M. Alosmanov
Bakı Dövlət Universiteti
gozel.abdullayeva2@gmail.com

POLİETİLEN, POLİPROPİLEN VƏ POLİVİNİLXLORİDDƏN İBARƏT POLİMER QARIŞIQLARIN ALINMASI VƏ TƏDQİQİ

Polimer qarışıqlar iki və daha çox polimer birləşmənin əridilərək və ya həll olunaraq qarışdırılması ilə yeni özünəməxsus xassələrin alınması üçün əldə olunur[1]. Bu qarışıqların fiziki və mexaniki xassələri faza morfologiyasından, dispers faza ilə dispers mühit arasındakı qarşılıqlı təsirdən və komponentlərin qarışdırılma nisbətindən asılıdır[2]. Real tətbiqlər üçün istifadə olunan polimer qarışıqlar ekstruder və mikserlərdə ərimə nəticəsində hazırlanan fiziki qarışıqlardır.

Sadə mexaniki qarışdırma yolu ilə ilk polimer qarışıq (quttaperça ilə təbii kauçuk qarışığı) Thomas Hancock tərəfindən alınmışdır. E.Martuscelli, R.Greco, G.Ragosta, Y.Lin, K.Wang, R.Strapasson, D.Hill,J.Hay və s. alimlər polimer qarışıqların xassələrinin, onların alınma proseslərinin öyrənilməsində, R.Robeson, L.Goettler, P.Galli, J.Scobbo və s. alimlər isə tətbiq sahələrinin müəyyənləşdirilməsində vacib işlər görmüşlər.

Polimer qarışığın bircinsliyi prosesin temperaturundan, polimerin quruluşundan və komponentlərin qarışdırılma nisbətindən asılıdır[3]. Müəyyən olunmuşdur ki, dispers faza və dispers mühitin əsas xüsusiyyətlərindən biri olan faza morfologiyası başlanğıc polimerlərin nisbətindən, və əridilmə-qarışdırılma şərtlərindən asılıdır. Özlülüyü daha yüksək olan polimer birləşmə dispers faza rolunda çıxış edir[4].

Qarışıqların alınması adətən əridilmə yolu aparılır. Həll olunmaqla polimer qarışıqların sintezi isə laboratoriyada daha tez-tez istifadə olunan metoddur. Bu metodun üstün cəhəti yüksək enerji tələb olunmadan prosesin daha sürətlə getməsidir.

Polimer qarışıqlar elektrik keçirici materialların alınmasında, ətraf-mühit sensorları və detektorlar, batareya ayırıcıları kimi, habelə, tibb sahəsində geniş tətbiq sahələrinə malikdir[5].

Laboratoriya işinə Sumqayıt Texnologiyalar Parkının məhsulu olan yüksək sıxlıqlı polietilen və polipropilenin müxtəlif kütlə nisbətlərində qarışdırılaraq nümunələrin qızdırılması ilə başlanmışdır. Bu məqsədlə nümunələrin daha yaxşı qarışması üçün komponentlər əvvəlcədən kiçik hissəciklər şəklində xırdalanmış və hər üç polimer kimyəvi modifikasiyaya məruz qoyulmuşdur.

Qarışıqda özlülüyü yüksək olan polietilen dispers faza, polipropilenisə dispers mühit rolunda çıxış edir. Müşahidə nəticəsində müəyyən edilmişdir ki, polietilenin miqdarının artması qarışığın gərilmə qabiliyyəti və elastikliyini azaldır[6].

Ədəbiyyat

1. Bertin S., Robin J.J. Study and characterization of virgin and recycled LDPE/PP blends. Eur. Polym. J. 2002;38:2255–2264.
2. Albano C., González J., Ichazo M., Rosales C., Urbina de Navarro C., Parra C. Mechanical and morphological behavior of polyolefin blends in the presence of CaCO3. Compos. Struct. 2000;48:49–58.
3. Elmendorp J.J., Maalcke R.J. A study on polymer blending microrheology: Part 1. Polym. Eng. Sci. 1985;25:1041–1047.
4. Plochocki A.P., Dagli S.S., Andrews R.D. The interface in binary mixtures of polymers containing a corresponding block copolymer: Effects of industrial mixing processes and of coalescence. Polym. Eng. Sci. 1990;30:741–752.
5. Laoutid F., Estrada E., Michell R.M., Bonnaud L., Müller A.J., Dubois P. The influence of nanosilica on the nucleation, crystallization and tensile properties of PP– PC and PP-PA blends. Polymer. 2013;54:3982–3993.
6. L. Bohn, Rubber Chem. Technol., 41,495 (1968).

U. Q. Məmmədova, O.H. Əkbərov,
F.M. Kamranzadə, E.O. Əkbərov
Bakı Dövlət Universiteti
ulduzmemmedova@mail.ru

TRİETANOLAMİNLƏ TİKİLMİŞ MALEİN ANHİDRİDİ-STİROL BİRGƏ POLİMERİNİN AMMONİUM DUZUNUN ALINMASI

Trietanolaminlə tikilmiş malein anhidridi-stirol birgə polimerinin ammonium duzu üç mərhələdə sintez olunmuşdur. Birinci mərhələdə ekvimolyar nisbətdə götürülmüş malein anhidridi və stirolun azobisizobutironitriliştirakilə80oC-də benzol məhlulunda radikal birgə polimerləşməsi yolu ilə malein anhidridi-stirol birgə polimeri alınmışdır (çıxım 82%, xarakteristik özlülük 0.64 dl q^{-1}, metietilketon, 20°C) [1]. İkinci mərhələdə birgə polimer (4.04 q, 0.02 mol) və tikici agent kimi trietanolamin (1.49 q, 0.01 mol) qarışığı 120°C-də 1 saat müddətində qızdırıldıqdan sonra əvvəlcə distillə suyu, sonra isə asetonla bir neçə dəfə yuyularaq vaakum quruducu şkafda 40°C-də qurudulmuşdur. Üçüncü mərhələdə isə tor quruluşlu polimer 50 ml 5%-li ammonium hidroksid məhlulunda 1 saat müddətində 30-40°C-də qızdırılmışdır. Alınan ammonium duzu asetonla bir neçə dəfə yuyularaq vaakum quruducu şkafda 40°C-də qurudulmuşdur. Malein anhidridi-stirol birgə polimerinin ammonium duzunun quruluşu aşağıdakı kimidir:



Sintez olunmuş tor quruluşlu ammonium duzu Rodamin 6G boyaq məddəsinin sulu məhluldan sorbsiyası üçün sorbent kimi istifadə olunmuşdur.

Ədəbiyat

1. Əkbərov O.H., Əkbərov E.O. Yüksəkmolekullu birləşmələr kimyasından praktikum,BDU nəşriyyatı, 2014, 228 s.

U.Q. Məmmədova,O.H. Əkbərov,
F.M. Kamranzadə, E.O. Əkbərov
Bakı Dövlət Universiteti
ulduzmemmedova@mail.ru

TRİETANOLAMİNLƏ TİKİLMİŞ MALEİN ANHİDRİDİ-STİROL BİRGƏ POLİMERİNİN AMMONİUM DUZU İLƏ RODAMİN 6G BOYAQ MADDƏSİNİN SORBSİYA ŞƏRAİTİNİN ÖYRƏNİLMƏSİ

Rodamin 6G-nin molekul quruluşu aşağıdakı kimidir [Wikipedia]:



Rodamin 6G-nin sorbent olaraq trietanolaminlə tikilmiş malein anhidridi-stirol birgə polimerinin ammonium duzu (TMSA) ilə sulu məhluldan sorbsiyası öyrənilərkən sorbsiya dərəcəsinin məhlulun pH-dan, sorbentin kütləsindən, kontakt müddətindən, temperaturdan və Rodamin 6G-nin başlanğıc məhlulda qatılığından asılılığı tədqiq edilmişdir.

Sorbsiya dərəcəsinə pH-ın təsiri. TMSA ilə Rodamin 6G boyasının sulu məhlulda sorbsiyası zamanı sorbsiya dərəcəsinə pH-ın qiymətinin təsirinə aid təcrübələr aparılmışdır. Bu zaman müəyyən edilmişdir ki, Rodamin 6G sorbsiyası pH=6-da maksimumolduğundan sonrakı təcrübələr seriyasında pH=6 olan bufer məhluldan istifadə olunmuşdur.

Sorbsiya dərəcəsinin sorbentin kütləsinin təsiri. TMSA ilə Ro-

damin 6G boyasının sulu məhluldan sorbsiya dərəcəsinə sorbentin kütləsinin təsiri 200 mqL-1 başlanğıc qatılığında, 20°C temperaturda və 30 dəq. kontakt müddətində öyrənilmişdir. Bu şəraitdə sorbentin kütləsi 0,02q-dan 0,1q-a qədər dəyişdirilmişdir. Nəticələr göstərir ki, sorbentin kütləsinin 0,02 q-dan 0,1q-a qədər artırılmasında sorbsiya dərəcəsi 5.2 % -dən 15,0% -ə qədər artır.Sorbentin kütləsi 0,08-0.1q olduqda sorbsiya dərəcəsi sabitləşdiyindən (14.4-15.0%) 0, 08q kütlə digər ölçmələr üçün optimal kütlə hesab olunmuşdur

Sorbsiya dərəcəsinə kontakt müddətinin təsiri. Sorbsiya dərəcəsinə kontakt müddətinin təsirinə aid təcrübələr Rodamin 6G-nin 200 mqL^{-1} başlanğıc qatılığında, pH=6–da (msorb=0,08 q, T=20^0 C, V= 0,04L) aparılmışdır.Kontakt müddətini 10 dəq-dən 120 dəq-ə qədər artırdıqda sorbsiya dərəcəsi 9.5%-dən 26,2 %-ə qədər artmışdır. Sonrakı müddətdə sabit qalır. Ona görə də sonrakı təcrübələr 110 dəq müddətində aparılmışdır.

Rodamin 6G-nin sorbsiya dərəcəsinə temperaturun təsiri. TMSA ilə Rodamin 6G-nin sulu məhluldan sorbsiya dərəcəsinə temperaturun təsiri öyrənilmişdir. Başlanğıc qatılıq 200 mqL-1 götürülən məhlulun həcmi V=0. 04L, sorbentin kütləsi 0.08q, zaman isə 110 dəqgötürülmüşdür. Temperaturun 293K-dən 333K-ə qədər artırılması ilə sorbsiya dərəcəsi 25.1%-dən 35.6%-ə qədər artmışdır. Yuxarı temperatur şəraitində sorbsiyanın daha effektli getməsi müşahidə olunmuşdur. Deməli, sorbsiya endotermik xarakter daşıyır.

Sorbsiya dərəcəsinə Rodamin 6G-nin qatılığının təsiri. TMSA ilə Rodamin 6G-nin sorbsiyası üçün bu asılılığın xarakterini müəyyən etmək üçün Rodamin 6G-nin 50-250 mqL^{-1} qatılıqları intervalında təcrübələr aparılmışdır (msorb= 0,08 g, 20oC, pH=6, 110 dəq). Qatılığı 50 mqL^{-1}-dən 250 mqL^{-1}-ə qədər artırdıqda sorb-siya dərəcəsi 34,9%-dən 23.2%-ə qədər azalmışdır. Alınan bu nəticəni qanunauyğun hesab etmək olar, çünki boya maddəsinin qatılığı artdıqca sorbentin aktiv hissələri boya maddəsi ilə tutulur, yəni sorbentin boya maddəsi ilə doyma dərəcəsi artır və beləliklə, qatılığın artması ilə sorbsiya dərəcəsi getdikcə azalmağa başlayır.

V. İsmayılzadə, E.O. Əkbərov,
F.M. Kamranzadə, O.H. Əkbərov
Bakı Dövlət Universiteti
vusal.ismayilzade94@gmail.com

TOR QURULUŞLU TRİETANOLAMİN - MALEİN ANHİDRİDİ – STİROL BİRGƏ POLİMERİ İLƏ RODAMİN 6G BOYAQ MADDƏSİNİN SORBSİYA ŞƏRAİTİNİN ÖYRƏNİLMƏSİ

Rodamin 6G-nin molekul quruluşu aşağıdakı kimidir;



Rodamin 6G-nin trietanolamin və malein anhidridi-stirol birgə polimeri əsasında alınmış sorbentlə (TEA-MA-ST) sulu məhluldan sorbsiyası öyrənilərkən sorbsiya dərəcəsinin məhlulun pH-dan, sorbentin kütləsindən, kontakt müddətindən, temperaturdan və Rodamin 6G-nin başlanğıc məhlulda qatılığından asılılığı tədqiq edilmişdir. [1, p. 5-10]

Sorbsiya dərəcəsinə pH-ın təsiri. TEA-MA-ST ilə Rodamin 6G boyasının sulu məhlulda sorbsiyası zamanı sorbsiya dərəcəsinə pH-ın qiymətinin təsirinə aid təcrübələr aparılmışdır. Bu zaman müəyyən edilmişdir ki, Rodamin 6G sorbsiyası pH=6 mühitində daha əlverişli olur. Ona görə də sonrakı təcrübələr seriyasında pH=6 olan bufer məhluldan istifadə olunmuşdur.[2, s. 24-27]

Sorbsiya dərəcəsinin sorbentin kütləsinin təsiri. TEA-MA-ST ilə Rodamin 6G boyasının sulu məhluldan sorbsiya dərəcəsinə sorbentin kütləsinin təsiri 200 mq/L başlanğıc qatılığında, 20oC tem-

peraturda və 30 dəq kontakt müddətindəöyrənilmişdir. Bu şəraitdə sorbentin kütləsi 0,02 q-dan 0,1q-a qədər dəyişdirilmişdir. Nəticələr göstərir ki, sorbentin kütləsinin 0,02 q-dan 0,1q-a qədər artırılmasında sorbsiya dərəcəsi 3,0 % -dən 10,5% -ə qədər artır. Sorbentin kütləsi 0,08 q olduqda sorbsiya dərəcəsi sabitləşdiyindən bu kütlə digər ölçmələr üçün optimal kütlə hesab olunmuşdur.

Sorbsiya dərəcəsinə kontakt müddətinin təsiri. Sorbsiya dərəcəsinə kontakt müddətinin təsirinə aid təcrübələr Rodamin 6G-nin 200 mqL-1 başlanğıc qatılığında, pH=6–da (m_{sorb}=0,08 q, temp.=20^{0}C, V=0,04 L) aparılmışdır.Kontakt müddətini 10 dəq-dən 110 dəq-ə qədər artırdıqda sorbsiya dərəcəsi 9,5%-dən 21,0%-ə qədər artmışdır. Sonrakı müddətdə praktiki olaraq sabit qalır. Ona görə də sonrakı təcrübələr 110 dəq müddətində aparılmışdır.

Rodamin 6G-nin sorbsiya dərəcəsinə temperaturun təsiri. TEA-MA-ST ilə Rodamin 6G-nin sulu məhluldan sorbsiya dərəcəsinə temperaturun təsiri öyrənilmişdir. Başlanğıc qatılıq 200 mqL-1 götürülən məhlulun həcmi V=0.04L, sorbentin kütləsi 0.08 q zaman isə 110 dəqgötürülmüşdür. Temperaturun 293K-dən 333K-ə qədər artırılması ilə sorbsiya dərəcəsi 20,1%-dən 36.6%-ə qədər artmışdır. Yuxarı temperatur şəraitində sorbsiyanın daha effektli getməsi müşahidə olunmuşdur. Deməli sorbsiya endotermik xarakter daşıyır.

Sorbsiya dərəcəsinə Rodamin 6G-nin qatılığının təsiri. TEA-MA-ST ilə Rodamin 6G-nin sorbsiyası üçün bu asılılığın xarakterini müəyyən etmək üçün Rodamin 6G-nin 50-250 mqL-1 qatılıqları intervalında təcrübələr aparılmışdır (msorb= 0,08 g, 20oC, pH=6, 110 dəq). Qatılığı 50-dən 250 mqL-1 -ə qədər artırdıqda sorbsiya dərəcəsi 33,9%-dən 19.3 %-ə qədər azalmışdır. Alınan bu nəticəni qanunauyğun hesab etmək olar, çünki boya maddəsinin qatılığı artdıqca sorbentin aktiv hissələri boya maddəsi ilə tutulur, yəni sorbentin boya maddəsi ilə doyma dərəcəsi artır və beləliklə, qatılığın artması ilə sorbsiya dərəcəsi azalmağa başlayır.

Ədəbiyyat

1. Hamilton T.K, Zug K.A.(1996). Triethanolamine allergyinadvertently discovered from a fluorescentmarkingpen. Am.J. Contact Dermat 7(3): 164-5
2. Əkbərov O.H., Əkbərov E.O.. Yüksək məlekullu birləşmələr kimyasından praktikum, BDU nəşriyyatı, 2014,228 s.

О.И. Алиев, О.О. Балаева
Бакинский Государственный Университет
al-v.orudj997@mail.ru

ПОЛУЧЕНИЕ НАНОКОМПОЗИТОВ МЕТОДОМ ТЕМПЛАТНО-ЖЕРТВЕННОГО СИНТЕЗА

На данный момент исследователи, занимающиеся нанотехнологией, стараются расширить возможности получения новый материалов на уровне наноструктур [1]. При получении наноструктурных оксидов металлов большое внимание уделяют такому их свойств, как большая удельная поверхность, которая определяет его применение в различных электрохимических процессах [2] и гетерогенных каталитических реакциях [3]. В данном случае прилагают усилия для получения наноструктурных оксидов металлов с высокой удельной поверхностью. Одной из главных проблем выделяют получение оксидов металлов на носителях. Для решения данной проблемы нанотехнологи разработали новый метод, называемый гидролиз с ускоренным жертвенным темплатом [1]. Впервые об этом сообщили Liuetal [4], где описывали новый метод, испробованный для получения нанотрубок оксида железа Fe_2O_3 на подложках из сплава с использованием шаблона, состоящего их нанопроволок ZnO. Авторы сообщили, что в нанотрубках Fe_2O_3 хорошо протекает гидролиз и растворяется темплат. Zeng at al. сообщили, что данный метод также был опробован для крупного производства нанотрубок из $SnO_2/\alpha\text{-}Fe_2O_3$ на подложке, изготовленной из нержавеющей стали с применением шаблона из нанопроволок ZnO [5]. Нанотрубки из $SnO_2/\alpha\text{-}Fe_2O_3$ получили при погружении ядро – оболочка SnO_2-ZnO в водный раствор Fe3+. Полученный материал обладает хорошими электрохимическими свойствами. Также сообщается о проведении синтеза с получением трубчатых решёток из наночастиц NiO-MnO_2 на подложке из нержавеющей стали для электрода псевдоконденсаторов.АнанопроволокиZnO использовались в качестве жертвенного шаблона [6].

Гидротермальным методом были синтезированы нанопроволоки ядро – оболочка MnO_2-ZnO. Затем с помощью реакции гидролиза с ускоренным жертвенным шаблоном был изготовлен NiO-MnO_2. Этот материал используется как катализатор

в производстве водорода из метанола [7]. С использованием шаблона из латекса были проведены синтетические методы для производства структур ядро-оболочка из слоистых двойных гидроксидов или полых сфер. Du и др. сообщили об увеличении роста слоистых двойных гидроксидов и о возможности зародышеобразования на поверхности гранул катионообменной смолы дивинилбензола и сульфированного полистирола (565-650 мкм) [8]. Для увеличения скорости зародышеобразования слоистыхдвойных гидроксидов гранулы сначала превращали в обменную форму Mg_2+/Al_3+, а затем добавили к раствору гидроксида натрия. При постоянном значении pH=9 путем добавления раствора соли металла контролировали рост слоистых двойных гидроксидов [9].

Латексный шаблон можно использовать в получении коллоидного кристалла для ограничения наночастиц слоистых двойных гидроксидов и последующего производства материалов 3-D. Этот метод создания шаблонов коллоидных кристаллов позволяет, вводить хорошо упорядоченные и взаимосвязанные поры в материал и был изучен исследователем А. Штейном [10]. Geraudи др. были первыми, кто продемонстрировал возможность удержания соосаждения слоистых двойных гидроксидов в межузельных пустотах шаблона коллоидного кристалла полистирола [11].

С применением метода жертвенного шаблона с участием ZIF-67 в качестве матрицы был синтезирован полый многослойный двойной гидроксид полиэдр Ni-Co. В результате полученный материал в качестве анода способен накапливать ионы лития [12].Это исследование открывает новые способы для получения полых наноструктур для перспективных электрохимических применений.

Литература

1. T. Tan Vu, Vinh La, N.K. Tran, D.C.Huynh. Journal of the Iranian Chemical Society. 2019.
2. M.Y. Ho, P.S. Khiew, D. Isa, T.K. Tan, W.S. Chiu, C.H. Chia, NANO 09, 1430002 (2014).
3. Y. Wang, H. Arandiyan, J. Scott, A. Bagheri, H. Dai, R. Amal, J. Mater. Chem. A 5, 8825(2017).
4. J. Liu, Y. Li, H. Fan, Z. Zhu, J. Jiang, R. Ding, Y. Hu, X. Huang, Chem. Mater. 22, 212 (2010)

5. W. Zeng, F. Zheng, R. Li, Y. Zhan, Y. Li, J. Liu, Nanoscale 4, 2760 (2012)
6. M.-S. Wu, H.-W. Chang, J. Phys. Chem. C 117, 2590 (2013)
7. T.T. Vu, T. Valds-Sols, G. Marbn, J. Environ. Chem. Eng. 2, 2229 (2014)
8. Du, Y., Hu, G., O'hare, D.,J. Mater. Chem. 19, 1160-1165 (2009).
9. V. Prevot, and E. Bourgeat-Lami. Layered Double Hydroxide Polymer Nanocomposites. 2020.
10. Stein et al., 2013; Petkovich and Stein, 2013.
11. Halma, M., Castro, K.A.D.D.F., Prevot, V., Forano, C., Wypych, F., Nakagaki, S.,J. Mol. Catal. A: Chem. 310, 42-50 (2009).
12. Youjun Lu, Yingjie Du and Haibo Li. Front. Chem. 2020.

S.F. Məmmədova, O.O. Balayeva, A.Ə. Əzizov,
M.B. Muradov, L.R. Qəhrəmanlı, R.M. Alosmanov
Bakı Dövlət Universiteti
memmedovasevinc820@gmail.com

$Ni_{0.2}Zn_{0.8}S$ NANOHİSSƏCİKLƏRİNİN LAYLI İKİLİ HİDROKSİDLƏR ƏSASINDA ALINMASI

Laylı ikili hidroksidlər (LİH) hidrotalsit birləşmələr kimi tanınır və anion gil qeyri – üzvi birləşmələr qrupuna aiddir. LİH-lərinquruluşumüsbət yüklü təbəqələrdən ibarətdir və təbəqələrarası məsafədə yerləşən anionlar strukturdakı neytrallığı təmin edir [1, 2].

Təqdim edilən işdə NiZnAl əsaslı laylı ikili hidroksidlər birgə çökdürmə metodu ilə sintez edilmişdir. Təcrübədə $NiSO_4{\cdot}7H_2O$, $ZnSO_4{\cdot}7H_2O$ və Al2(SO_4)$\cdot$18H_2O duzları qarışıq məhlulun hazırlanmasında istifadə edilmişdir. Məhlulda ikivalentli və üçvalentli metal ionlarının nisbəti Me_2+/Me_3+ = 3/1 götürülmüşdür. LİH əsaslı polimer nanokompozitininhazırlanmasında istifadə olunan 10%-li polivinil spirti (PVS) həm stabilləşdirici, həm də matrisa kimi tətbiq edilmişdir. Çökdürücü kimi NaOH istifadə edilmiş və proses 90oC-də aparılmışdır. Alınan NiZnAl-LİH/PVS kompoziti əsasında $Ni_{0.2}Zn_{0.8}S$ nanohissəcikləri sintez edilmiş, nümunələrin optiki və struktur xassələri ultrabənövşəyi-görünən sepktroskopiya (UB-gör.) və rentgen difraktometri (RD) ilə tədqiq edilmişdir.

UB-gör spektroskopiya ilə aparılmış tədqiqatın nəticələrinə əsasən NiZnAl-LİH/PVS və NiZnAl-LİH/PVS/$Ni_{0.2}Zn_{0.8}S$ nanokompo-

zitlərinin qadağan olunmuş zona eni uyğun olaraq 3.10 və 2.98 eV olmuşdur (Şəkil 1). RD ilə aparılmış tədqiqatın nəticələrinə əsasən alınmış NiZnAl- LİH yüksək kristallıqla təbəqəli strukturlar sintez olunmuşdur (Şəkil2). NiZnAl-LİH/PVS/$Ni_{0.2}Zn_{0.8}S$ nanokompozitində 2θ=27.32o düşən difraksiya piki $Ni_{0.2}Zn_{0.8}S$ nanohissəciklərinin formalaşmasını göstərir. $Ni_{0.2}Zn_{0.8}S$ nanohissəciklərinin orta diametri 5.31 nm olmuşdur.



Şəkil 1. a) NiZnAl-LİH/PVS və NiZnAl-LİH/PVS/$Ni_{0.2}Zn_{0.8}S$ nanokompozitlərinin qadağan olunmuş zonanın eni.



Şəkil 2. a) NiZnAl-LİH/PVS və NiZnAl-LİH/PVS/$Ni_{0.2}Zn_{0.8}S$ RD ilə analizi

Nəticələrdən göründüyü kimi sintez olunmuş nümunələr optiki, fotokatalitik və fotoelektrik tətbiqlər üçün sənayenin müxtəlif sahələrində istifadə oluna bilər.

Ədəbiyyat

1. Simon P. and Gogotsi, Nat Mater , 2008 , 7, 845-854
2. Tolentino M. A. O., J. Samperio V., A., et al. J. Phys. Chem. C, 2014, 118, 22432-22438.

N. Mikayılova, E.O. Əkbərov, O.H. Əkbərov
Bakı Dövlət Universiteti
mikayilova.natella@gmail.com

MALEİN ANHİDRİDİ-STİROL - HEPTEN-1 ÜÇLÜ BİRGƏ POLİMERİ VƏ KARBAMİD ƏSASINDA SORBENTİN ALINMASI

Malein anhidridi-stirol-hepten-1 üçlü birgə polimeri və karbamid əsasında sorbentin əmələ gəlməsi iki mərhələdə baş tutur: ilkin mərhələdə istifadə olunan malein anhidridi benzoldan təkrar kristallaşdırmaqla təmizlənilərək əldə edilir daha sonra isə stirol və hepten-1-lə uyğun metodikadan istifadə edilərək [1] AİBN vasitəsilə radikal üçlü birgə polimerləşməsindən malein anhidridi-stirol-hepten-1 üçlü birgə polimeri sintez olunur (MA-ST-HP), sonrakı mərhələdə artıq karbamidlə sintez olunmuş polimerin reaksiyası aparılmışdır. Bunun üçün 0.6 q (0.01mol) karbamid və 6.0 q (0,02 mol) MA-ST-HP farfor çaşkada həvəngdəstə vasitəsilə əzilir, qarışdırılır və sonra 3 saat ərzində temperaturu 180^0C olan peçdə qızdırılır, sonra qarışıq soyudulur və spirtdən istifadə edilərək qarışıq bir neçə dəfə yuyulur, əldə edilən çöküntü 40^0C-də vakkum-quruducu şkafda qurudulur. Aparılan reaksiya nəticəsində aşağıda verilən sxem üzrə maleimid-stirol-hepten-1 üçlü birgə polimeri (MAİSH) alınır (sxemdə stirol və hepten-1 elementar tərkib vahidləri göstərilməmişdir):



Alınan MAİHS-insorbent kimi istifadə oluna bilməsinin səbəbi makromolekulunda karbonil və imid qrupları olması ilə bağlıdır.

Ədəbiyyat

1. Əkbərov O.H., Əkbərov E.O.. Yüksəkmolekullu birləşmələr kimyasından praktikum, BDU nəşriyyatı, 2014, 228 s.

T.H. İbrahimova, Z.A. Əsgərova, R.M. Alosmanov
Bakı Dövlət Universiteti
ibrahimovaturkane97@gmail.com

MÜRƏKKƏB TƏRKİBLİ SULU MƏHLULLARDAN FENOLUN SORBSİYASININ TƏDQİQİ

Fenol və onun törəmələrinin ucuz olması və asan əldə edilməsi inkişaf edən üzvi sintez, neft-kimyası, əczaçılıq, metallurgiya sahələrində, eləsə də fenol-formaldehid tip polimerlərin sintezində, plastik kütlələrin, sintetik parçaların, pestisidlərin, müxtəlif boyaların istehsalında onların tətbiqini zəruri edir [1].

Sənaye sahələrinin tullant sularındakı fenolun miqdarı istehsal növündən asılı olaraq müxtəlif olur. Fenolun havada yolverilən qatılığı 5mq/m3, su hövzələrində isə 0.001mq/l-dir. Fenollar su hövzələrinin oksigen rejimini pozurlar. Fenol birləşmələrinin parçalanması sudan oksigenin kəskin udulmasına səbəb olurki, buda balıqların qırılmasına gətirib çıxarır. Təbii şəraitdə onlar sudakı orqanizmlərin metabolizmi və üzvi birləşmələrin biokimyəvi parçalanması yolu ilə əmələ gəlir. Fenolların əsas texnogen mənbələrinə isə neft, qaz çıxarma sahələri, neft emalı, kimya və sellüloza-kağız sənayesi aiddir. Koks-kimya zavodlarının tullantı sularında 1.5-5.0q/l, qaz emalı zavodlarının tullantı sularında 3.3q/l, neft emalı müəssisələrinin tullantı sularında isə fenolların miqdarı 0.2-0.4q/l-ə qədər olabilir [1].

Digər toksiki və davamlı üzvi çirkləndiricilər kimi fenollarında tullantı sularından kənarlaşdırılması üçün müxtəlif fiziki-kimyəvi və bioloji metodlardan istifadə olunur. Bu metodlar içərisində müxtəlif təbiətli sorbentlərlə həyata keçirilən sorbsiya prosesləri öz effektliyilə seçilir.

Təqdim olunan işdə maqnit hissəcikli polimer kompozitlə

tərkibində kadmium (II) ionları və fenol olan məhlullardan fenolun sorbsiya izotermləri analiz edilmişdir. 50 mq/l qatılıqlı fenol məhlulundan sorbsiya üçün sorbentin məhlula olan optimal miqdarı 1:100 olmuşdur. Bu şəraitdə 120 dəq müddətində tarazlıq yaranır və fenolun 90%-ə qədəri polimer fazasına keçir. İzotermlərin Lənqmür və Freyndlix modellər ilə işlənməsi Lənqmür modelinə uyğunluğu aşkar etmişdir. 3 parametrli Redlix-Peterson və Toth tənlikləri ilə təcrübi nəticələrin işlənməsi nəzəri və eksperimental nəticələrin təcrübi xəta daxilində üst-üstə düşdüyünü göstərir. Sorbsiya psevdo-ikinci tərtib modelə uyğun gəlir. Hibbs enerjisinin $\Delta G°$ qiymətinin mənfi olmasını tədqiqatçı prosesin öz-özünə baş verməsi ilə əlaqələndirir. $\Delta H°$ üçün tapılmış mənfi qiymət isə sorbsiyanın ekzotermik olduğunu göstərir.

Ədəbiyyat

1. Issabayeva G., Hang S.Y., Wong M.C., Aroua M.K. A review on the adsorption of phenols from wastewater onto diverse groups of adsorbents. Reviews in chemical engineering. 2018. 34 (6), 855-873.

Z.A. Əsgərova, T.H. İbrahimova, R.M. Alosmanov
Bakı Dövlət Universiteti
r_alosmanov@rambler.ru

MÜRƏKKƏB TƏRKİBLİ SULU MƏHLULLARDAN KADMİUMUN SORBSİYASININ TƏDQİQİ

Əsas çirkləndiricilərdən hesab olunan ağır metalların ətraf mühitə göstərdiyi təsirin fəsadlarını aradan qaldırmaq mümkün olmadığından bu məsələ son bir neçə onilliklər ərzində qlobal bir problemə çevrilmişdir. Ağır metallardan biri olan kadmium Xərçənglə Mübarizə üzrə Beynəlxalq Agentlik tərəfindən 1-ci kateqoriyalı və ABŞ-ın Ətraf Mühitin Mühafizəsi Agentliyi (EPA) tərəfindən B1 qrupunun kanserogenləri siyahısına daxil edilmişdir [1].

Ümumdünya Səhiyyə Təşkilatı, ABŞ-ın Ətraf Mühitin Mühafizəsi Agentliyi və Avropa Birliyi tərəfindən yaşayış evlərinə verilən suda kadmiumun yol verilə biləcək maksimum həddi 0.005 mq/l olaraq təyin edilmişdir. Eyni zamanda ABŞ-ın Ətraf Mühitin Mühafizəsi

Agentliyi çirkab sularında da kadmium üçün yol verilə biləcək maksimum həddi müəyyənləşdirmişlər: 2 mq/l. Hindistanın IS 10500 standart koduna uyğun olaraq daxili səth suları və kanalizasiya sisteminə atılan çirkab sularında kadmiumun qatılığı 2,0 və 1,0 mq/l-dən çox olmamalıdır. Bu koda görə içməli suda kadmiumun yol verilə biləcək maksimum həddi 0.003 mq/l-dir. Hal-hazırda kadmiumun tullantı sularından kənarlaşdırılması üçün müxtəlif üsullar mövcuddur: kimyəvi çökdürmə, koaqulyasiya/flokulyasiya, ion mübadiləsi, həlledicilə ekstraksiya, bioloji təmizləmə, adsorbsiya və s [2,3].

Təqdim olunan işdə maqnit hissəcikli polimer kompozitlə tərkibində fenol və Cd (II) ionları olan model sulardan Cd(II) ionlarının sorbsiyası öyrənilmişdir. Sorbsiyanın kinetikası və izotermlərinin ətraflı tədqiqi ilə müəyyən edilmişdir ki, proses psevdo ikinci-tərtib və Langmuir modellərinə tabedir. Langmuir modelinə görə polimerin maksimum sorbsiya tutumu 52,61 mq/q-dir. Sorbsiya dərəcəsinin maksimum qiyməti pH=6.0-ya uyğundur və 97.4 % təşkil edir.

Ədəbiyyat

1. Peng Wu, Chenghui Li, Junbo Chen, Chengbing Zheng, Xiandeng Hou, Determination of cadmiuminbiologicalsamples: an updatefrom 2006 to 2011, Appl. Spectrosc. Rev. 2012, 47 (5) 327–370.
2. Friberg L., ElinderC., Kjellstrom T., Environmental Health Criteria 134: Cadmium, World Health Organization, Geneva, 1992.
3. Bernard A., Cadmium & its adverse effects on human health, Indian J. Med. Res. 2008, 128, 557–564.

O.O. Balayeva, N. İmaməliyeva, A.Ə. Əzizov, M.B. Muradov, L.R. Qəhrəmanlı, R.M. Alosmanov

Bakı Dövlət Universiteti

nermin.imameliyeva@gmail.com

MİS KADMİUM SULFİD ($CuCdS_2$) NANOHİSSƏCİKLƏRİNİN FUNKSİONALLAŞDIRILMIŞ NİTRİL KAUÇUKU ƏSASINDA ALINMASI

Yüksək lüminessensiya xassələrinə malik $CuCdS_2$ nanokristalları müxtəlif optik tətbiqlər üçün çox əhəmiyyətli yarımkeçirici materialdır [1]. Kimyəvi çökdürmə üsulu ilə sintez olunan $CuCdS_2$

nanokristallarının qadağan olunmuş zonanın eni 2.45 eV - 2.2 eV intervalında dəyişir [2].

İşdə mis kadmium sulfid ($CuCdS_2$) yarımkeçirici nanohissəciklərinin parılmışdır. Nanohissəciklərinstabilləşdirilməsi üçün polimer matris kimi oksigen iştirakında fosforxlorlaşmışnirtil kauçuku (FNK) istifadə edilmişdir [3].



Şəkil 1. $CuCdS_2$/FNK nanokompozitininRD analizi

$CuCdS_2$ nanohissəciklərinin alınması üçün $CuCl_2 \times 2H_2O$, $CdCl_2 \times 2{,}5H_2O$, $Na_2S \times 9H_2O$ kristalhidratlarının 0,1M məhlulları hazırlanmışdır. 0,2q FNK-da Cu2+və Cd2+ kationlarının qarışıq məhlulunda adsorbsiyası aparıldıqdan sonra sorbent distillə suyu ilə yuyulmuş, sulfidləşmə prosesi yerinə yetirilmişdir. Proses 5 və 15 dövrdə aparılmışdır. Alınmış nanokompozitin optiki və quruluş xassələri öyrənilmişdir. Rentgen difraktometrindən (RD) alınan nəticələrəgörə 5-ci dövrdən sonra nanohissəciklərin orta diametri 1.13nm olmuşdur (Şəkil 1). 2θ=26.77o (002) və 46.93o (103) difraksiya bucaqlarında müşahidə edilən intensive difraksiya pikləri $CuCdS_2$ nanohissəciklərinə uyğungəlir [4].

Ədəbiyyat

1. Khan A.H., Dalui A., Mukherjee S. ET AL. Angew. Chem. 127 (2015) 2681–2686, http://dx.doi.org/10.1002/ange.201409518.
1. Osuwa J.C., Oriaku C.I., AtulomaC.M. , Chalcogenide Lett. 7 (2010) 383–388.
2. Balayeva O.O., Azizov A.A., Muradov M.B. et al. β-NiS and Ni_3S_4 nanostructures: Fabrication and characterization. Materials Research Bulletin 75 (2016) 155-161.

3. Saravanana K., Suriakarthickb R., Ananthakumarc S., et al. Colloidal synthesis of copper cadmium sulphide ($CuCdS_2$) nanoparticles and its structural, optical and morphological properties. Materials Science in Semiconductor Processing 66 (2017) 123–130

O.H. Akbarov, P.S. Karimova
Baku State University
pervane_abbaszade@mail.ru

SORBTİON OF THE ZİNC (II) IONS FROM WATER SOLUTIONS BY SODIUM SALT OF THE MALEIC ACID – OCTEN-1 STYRENE TERPOLYMER

As the sorbent for the absorption of Zn (II) ions from an water solution, the sodium salt of the maleic acid triple joint polymer, octene-1-styrene, is used.Sodium salt of the maleic acid-octen-1-styrene triple joint polymer was obtained by hydrolysis of 5% NaOH solution of malein anhydride-octen-1-styrene terpolymer. The initial joint polymer was synthesized by a radical joint polymerization reaction in the presence of malein anhydride, desen-1, and styrene-free oxybutyronitrile (AIBN) at a ratio of 2:1:1 mol.

The combined polymer of 4.4 g (0.01 mol) malein anhydride-octen-1-styrene to obtain sorbent is weighed on analytical scales and poured into a two-dimensional two-dimensional tube equipped with a mechanical mixer containing 1.6 g (0.04 mol) NaOH. 32 grams of 5% NaOH solution is added. The mixture is heated at 40-50 °C in a water bath until the polymer is completely dissolved and homogenized. The mixture is then cooled to a glass and salted with 60-70 ml of acetone. The precipitate is washed several times with 10-15 ml of acetone and dried in a vacuum-drying cabinet on the Petri dish. Sodium salt obtained in white color is soluble in water, alcohol, insoluble in benzene, toloul, acetone.

Method of sorption: The sorption of zinc (II) ions by polymer-sorbent was carried out as follows: A well-known sorbent is poured into the Erlenmeyer tube and a $ZnSO_4$ solution is added to the volume and volume. The mouth of the tube is closed and kept stirring for a specified period of time, stirring occasionally. At the

end of the sorption period, the solution is passed through filter paper. Then take 1 ml of the solution and add 2 ml of xylenol-orange solution and dilute to buffer in a 25-ml measurement tube. The optical density of the solution (λ = 540 nm) was measured in the KFK-2 photocallorimeter. Based on the value of the optical density, the amount of zinc (II) ions in the solution is determined by the equation of the zinc (II) ions in the solution after sorption. According to the results obtained, the sorption rate (R) of the zinc (II) ions and the sorption capacity (s) of the sorbent are calculated by the following formula:

$R= (C_o-C_e)/C_o \cdot 100\ \%$ (1)

$q = ((C_o-C_e)\cdot V)/m$ mmol / g-1 (2)

Co and Ce - Initial and equilibrium concentrations of zinc (II) ions (g-1), V –volume of $ZnSO_4$ solution (mL) for sorption, m – sorbent mass (g).

When studying the sorption of zinc (II) ions from water solution, the dependence of the sorption rate of the ions and the sorption capacity of the sorbent on the sorbent mass, contact duration and the concentration of zinc (II) ions in the initial solution were investigated. The results obtained are based on the coordinates of the Lengmuir and Freundlich equations, and the corresponding parameters of the sorption are determined. In addition, opinions were made on the nature of the sorption by determining kinetic and thermodynamic parameters of sorption.

Literature

1. Багровская Н.А., НикифороваТ.Е., КозловВ.А. и др. Сорбция ионов металлов на природном белковом сорбенте. Изв. Вузов Сер. Хим. И химтехн. 2002,т.43, вып.4, с. 131-133.
2. HoY.S.Mckay // Water, AirandSoilPollut. Int. 1 Environmental Pollution, 2004, v. 58, № 1- 4, p. 77.
3. Будаева А.Д., ЗолтоевЕ.В., БальбуроваТ.А. Сорбция ионов тяжелых металлов гуматами Na, K, аммония. Материалы научной конференции, 2005.

G. Süleymanova, O.H. Əkbərov, E.O. Əkbərov
Bakı Dövlət Universiteti
gulnar.suleymanova.95@mail.ru

MALEİN ANHİDRİDİ-STİROL BİRGƏ POLİMERİ VƏ KARBAMİD ƏSASINDA SORBENTİN ALINMASI

Malein anhidridi-stirol birgə polimeri və karbamid əsasında sorbent iki mərhələdə alınmışdır: birinci mərhələdə benzoldan yenidən kristallaşdırılmaqla təmizlənmiş malein anhidridinin stirolla məlum metodika [1] üzrə AİBN iştirakilə radikal birgə polimerləşməsindənmalein anhidridi-stirol birgə polimeri (MA-ST) sintez olunmuş, ikinci mərhələdə isə sintez olunmuş birgə polimerin karbamidlə reaksiyası aparılmışdır.Bu məqsədlə 4.04 q (0,02 mol) MA-ST və 0.6 q (0.01mol) karbamid farforçaşkada həvəngdəstə ilə əzilib qarışdırılaraq 180^{0}C-də 3 saat müddətində qızdırılır. Sonra soyudulmuş qarışıq spirtlə bir neçə dəfə yuyulur və çöküntü vakuum-quruducu şkafda 40^{0}C-də qurudulur. Reaksiya nəticəsində aşağıda verilən sxem üzrə maleimid-stirol birgə polimeri (MAİS) əmələ gəlir(sxemdə stirol elementar tərkib vahidləri göstərilməmişdir):



MAİS makromolekulundakarbonil və imid qrupları olduğundan ondan sorbent kimi istifadə olunması mümkündür.

Ədəbiyyat

1. Əkbərov O.H., Əkbərov E.O. Yüksəkmolekullu birləşmələr kimyasından praktikum,BDU nəşriyyatı, 2014, 228 s.

N.V. Paşayev, A.Ə. Əzizov, O.O. Balayeva
Bakı Dövlət Universiteti
nurmehemmed998@gmail.com

BUTADİEN NİTRİL KAUÇUKUNUN SEOLİTLƏ FUNKSİONAL KOMPOZİTİNİN YUYULMASI VƏ ALINAN MADDƏNİN İŞTİRAKI İLƏ METAL İONLARININ SORBSİYASININ ÖYRƏNİLMƏSİ

Butadiennitril kauçukları xüsusi kimyəvi, fiziki, mexaniki və s. xassələrə malik olması ilə digər polimerlərdən fərqləir. Onlar yüksək temperaturun, yağların və benzinin təsirinə qarşı davamlı olub müxtəlif növ rezin məmulatlarınınhazırlanmasındaistifadə edilir[1]. Butadien-nitril kauçuklarından araqatlar, kingəclər, əlcəklər, benzin qabları və s.hazırlamaq üçün lazım olan rezinlər istehsal olunur.

Təqdim olunan işdə əvvəlcədən hazırlanmış butadien nitril kauçukun seolitlə kompozitindən 1qram götürülür. Sorbentin yuyulması üçün ilkin olaraq 0.1N NaOH və 0.1N HCl məhlulu hazırlanır. Daha sonra 0.1N NaOH məhlulundan 50 mlsorbentin üzərinə əlavə olunur. 24 saat gözlədikdən sonra maddə süzülür və 3-4 dəfə distillə suyu ilə yuyulur. Yuyulduqdan sonra sorbentin üzərinə 50 ml 0.1N HCl əlavə edilirvə 24 saat müddətindəsaxlanıldıqdansonra sorbent süzülür və distillə suyu ilə yuyulur. Analoji qayda olaraq 24 saat gözləməklə 0.01N NaOH, 0.01N HCl, 0.001N NaOH, 0.001N HCl, 0.0001N NaOH və 0.0001N HCl əlavə edilərək yuyulur. Tam yuyulduqdan sonra maddə qurudulmağa qoyulur.Qurudulmuş kompozitdən 0.01 qram olmaqla üç ədəd çəkilir və üzərinə 100 mq/l qatılıqlı duz məhlullarından (Cd^{2+}; Cu^{2+} və Ag^{1+}) 5 ml əlavə olunur. 24 saat məhlul qaranlıq yerdə saxlanıldıqdan sonra yuyulmuş butadien nitril kauçukunun seolitlə funksional kompozitinin metal ionlarını sorbsiya etmə qabiliyyəti Perkin Elmer istehsalı olan ICP optima 2100 DV atom emission spektrometr ilə öyrənilir.

Aldığımız nəticələrə əsasən ayrı-ayrılıqda sorbsiyası aparılmış funksional kompozitin Ag^{1+}, Cd^{2+}və Cu^{2+} ionlarını sorbsiya dərəcəsi müvafiq olaraq 62%, 56% və 35% olmuşdur. Nəticədə sorbentin sorbsiya dərəcəsi $Ag^{1+} > Cd^{2+} > Cu^{2+}$ kimi qeyd olunmuşdur.



Şəkil 1. Butadien nitril kauçukunun seolitlə funksional kompozitinin Ag^{1+}, Cd^{2+}və Cu^{2+} ionlarına görə sorbsiya dərəcəsi.

Ədəbiyyat

1. Ливый Г.В. Искусственные и синтетические материалы в обувномпроизводстве, Киев, Техника, 1967

О.И. Алиев, О.О. Балаева, А.А. Азизов
Бакинский Государственный Университет
al-v.orudj997@mail.ru

ИССЛЕДОВАНИЕ АДСОРБЦИИ ТАРТРАЗИНА НА НАНОКОМПОЗИТЕ ZnAl-СДГ/ ПВС

Для получения нанокомпозита на основе Zn-Al слоистого двойного гидроксида (СДГ)/поливинилового спирта (ПВС) использовался метод совместного формирования. Эксперимент проводился путем растворения $Zn(NO_3)_2 \cdot 7H_2O$ (0,015 моль) и $Al_2(SO_4)_3 \cdot 8H_2O$ (0,005 моль) в дистиллированной воде. Затем 10 г ПВС растворили в 80 мл дистиллированной воды. Полученную смесь титровали 5М раствора NaOH и перемешивали. После этого конечный твердый продукт промыли дистиллированной воды, высушили при комнатной температуре на воздухе, измельчили в порошок и использовали для исследования адсорбции пищевого красителя тартразина ($C_{16}H_9N_4Na_3O_9S_2$).

Тартразин — синтетический азокраситель, пищевая добавка Е102 [1]. Для определения калибровки была выбрана максимальная длина волны поглощения в 426,5 нм. Влияние количества адсорбента, pH, времени контакта, концентрации кра-

сителя и температуры на эффективность адсорбции изучали экспериментальными испытаниями. НанокомпозитZnAl-СДГ/ПВС оказался отличным адсорбентом для сорбции тартразина. Максимальное удаление красителя адсорбентом составляло 95% при оптимальном pH = 2, времени контакта 180 мин и температуре 20°C.

Литература

1. https://en.wikipedia.org/wiki/Tartrazine

V. İsmayılzadə, E.O. Əkbərov,
F.M. Kamranzadə, O.H. Əkbərov
Bakı Dövlət Universiteti
vusal.ismayilzade94@gmail.com

TOR QURULUŞLU TRİETANOLAMİN - MALEİN ANHİDRİDİ- STİROL BİRGƏ POLİMERİ İLƏ RODAMİN 6G BOYAQ MADDƏSİNİN SORBSİYA ŞƏRAİTİNİN ÖYRƏNİLMƏSİ

Ətraf mühiti çirkləndirən maddələrin başında üzvi əsaslı boyaq maddələri gəlir. Boyaq maddələrin çoxu toksik olub, birbaşa təmas halında dəridə qıcıqlanma, xərçəng, mutasiyavə bəzi allergik vəziyyətlərin meydana gəlməsinə səbəb ola bilir. Toxuculuq, kosmetika, boya, kağız, dəri, qida və plastik sənayeləri kimi bir çox müəssisələrin ətraf mühitə axıtdığı tullantı suların tərkibində olan üzvi(protein, karbohidratlar, yağ, fenollar, pestisidlər, xlorlu birləşmələr), qeyri üzvi(sink, qurğuşun, mis, nikel, arsen, civə, kadmium və s.) və müxtəlif növ boyaq maddələri insan sağlamlığını və ekoloji tarazlığı təhlükə qarşısına qoyur. Nəticədə ətraf mühitin qorunması üçün təhlükə yaranır. Sintetik üzvi boyalar toxuculuqdan dərman vasitələrinə qədər istehlakçı məhsullarda geniş şəkildə istifadə olunur. Müəyyən edilmişdir ki, istehsal zamanı sintetik parça boyalarının təxminən 12% -i itkiyə gedir, itirilmiş boyaq maddələrinin təxminən 20% -i çirkab suları vasitəsilə ətraf mühitə atılır. Buna görə də boyaların su kütlələrindənçıxarılmasına ehtiyac vardır. Hazırda boyaq maddələrinin təmizlənməsi üçün geniş tədbirlər planları həyata ke-

çirilir. Sənayenin bu cür sahələri inkişaf etdikcə boyaq maddələrin ətraf mühitə və insan sağlamlığına təsiri də artır. Bəzi boyaq maddələri hətta maddələr mübadiləsi üçün kanserogen təsirə malikdir. Buna görə də tullantı sularından boyaların çıxarılması mütləqdir. Bunun üçün bir sıra kimyəvi və fiziki-kimyəvi üsullar həyata keçirilir. Kimyəvi üsullardan istifadə edildikdə,xüsusi seçilmiş kimyəvi reagentlər atılacaq vasitəyə əlavə edilir. Bu maddələr çirkləndirici maddələrlə reaksiya verən həlledici maddələr meydana gətirir, bunlar yerin altına yerləşdirilir. Kimyəvi bir üsuldan istifadə edildikdə suda həll olan tərkibli qarışıqların təxminən 95%-i və həll olunmamış maddələrin təxminən 25%-ni çıxarmaq mümkündür. Fiziki-kimyəvi üsullardan istifadə edildikdə tullantı suları həm həll edilmiş, həm həll edilməmiş çirklənməni aradan qaldırmağa imkan verən xüsusi müalicəyə məruz qalır. Ən çox istifadə olunan üsulları kaoqulyasiya, flokulyasiya, ekstraksiya, ultrafiltrasiya. İlk iki üsul növü prinsipcə eynidir, lakin onlarda istifadə olunan reagentlər müxtəlifdir. 3-cü üsul çox bahalıdır, yəni çıxarılmış maddələr təkrar istifadə edildikdə aparılır.

Ədəbiyyat

1. Hamilton, T.K; Zug.K.A.(1996).» Triethanol amine allergy inadvertently discovered from a fluor escent marking pen. Am.J.Contact Dermat 7(3): 164-5
2. Əkbərov O.H., Əkbərov E.O. Yüksək məlekullu birləşmələr kimyasından praktikum, BDU nəşriyyatı, 2014,228 s.

M.H. Binnatova, E.Y. Malikov
Baku State University
mujgan.binnetova@gmail.com

SYNTHESIS OF THE HYDROGEL BY CROSS-LINKING THE POLYVINYL ALCOHOL WITH MALEIC ANHYDRIDE

A hydrogel is a material that possesses the cross-linked hydrophilic polymer chains as the dispersion phase and water as the dispersion medium. They find application in several purposes like tissue engineering, drug delivery, cell culture, sensors, disposable

diapers, contact lenses, medical electrodes, water gel explosives, encapsulation of quantum dots, breast implants, glue, etc.[1].Polyvinyl alcohol is a famous hydrogel-forming material for its non-toxicity, hydrophilic nature, biocompatibility, mechanical stability, ability to form inter and intramolecular hydrogen bonds, etc. [2,3].

The polyvinyl alcohol hydrogel was synthesized by cross-linking the macromolecules with maleic anhydride. 0.1 M aqueous solution of polyvinyl alcohol was prepared by dissolving the polymer in the double-distilled water. Two hours of vigorous stirring under room temperature was continued by the 30 minutes of stirring of the undissolved residues at 80˚C to obtain the completely dissolved polymer.

The polyvinyl alcohol macromolecules were cross-linked using maleic anhydride as the cross-linking agent. The 0.01 M aqueous solution of the cross-linking agent was prepared by gradually adding the maleic anhydride powders to the double-distilled water and stirring at room temperature. The residues were dissolved by heating and excess stirring.

The as-prepared solutions were mixed and the temperature of the final mixture was raised to 90˚C. Then 0.5 ml of 1M H_2SO_4 was added to the final mixture in order to trigger the cross-linking process and the process was conducted at 90˚C temperature by two hours of stirring.

After the completion of the process, the mixture was transferred to the petri dish and dried under 80˚C temperature for about two hours. Then the obtained film was washed using double-distilled water to remove the unreacted reagents and dried under atmospheric conditions.

Then the obtained hydrogel was investigated by different investigation techniques.

References

1. Warren D.S., SutherlandS.P.H., Kao J.Y., Weal G.R., Mackay S.M. (2017). «The Preparation and Simple Analysis of a Clay Nanoparticle Composite Hydrogel». Journal of Chemical Education. 94 (11): 1772–1779.
2. Gupta S., Pramanik A.K., Kailath A., Mishra T., Guha A., Nayar S., Sinha A. (2009). "Composition dependent structural modulations in transparent poly(vinyl alcohol) hydrogels". Colloids and Surfaces B: Biointerfaces. 74: 186-190.

3. Malikov E.Y, Muradov M.B., Akperov O.H., Eyvazova G.M., Puskás R., Madarász D., Nagy L, Kukovecz Á., KónyaZ. "Synthesis and characterization of polyvinyl alcohol based multiwalled carbon nanotube nanocomposites" (2014). Physica E: Low-dimensional Systems and Nanostructures. 61: 129-134.

M.H. Binnatova, E.Y. Malikov
Baku State University
mujgan.binnetova@gmail.com

SYNTHESIS OF THE HYDROGEL BY CROSS-LINKING THE POLYVINYL ALCOHOL WITH MALEIC ANHYDRIDE

The semiconductor nanoparticles synthesized within the polymeric matricesare the best materials for the production of electronic devices. The CdS nanoparticles are good for the production of solar cells, sensors, phosphors, light-emitting diodes, photocatalyst materials, etc. The successive ionic layer adsorption and reaction method (SILAR) is an easy, cheap, rapid,and effective methodforthe preparation of nanoparticles under mild conditions [1,2].

In this work, previously synthesized polyvinyl alcohol hydrogel was used as the matrix for the synthesis of the CdS nanoparticles and obtaining new polymer nanocomposites with advanced properties.

The polyvinyl alcohol hydrogel film wassuccessivelyadded into the 0.1Maqueous solution of $CdCl_2 \bullet 2.5H_2O$, stirred for 24 hours, dried in the air, then added into the 0.1 M aqueous solution of $Na_2S \bullet 9H_2O$, stirred for 24 hours, and dried in the air again.

Then the obtained Hydrogel/CdSnanocomposite was investigated by different investigation techniques.

References

1. Malikov E.Y., Altay M.C., Muradov M.B., Akperov O.H., Eyvazova G.M., Puskás R., Madarász D., Kukovecz Á., Kónya Z. (2015). Synthesis and characterization of CdS nanoparticle based multiwall carbon nanotube–maleic anhydride–1-octene nanocomposites. Physica E: Low-dimensional Systems and Nanostructures. 69: 212-218.
2. Malikov E.Y., Altay M.C., Akperov O.H., Muradov M.B., Eyvazova G.M., Kukovecz Á., Kónya Z. (2018). Effect of sonication time on the synthesis

of the CdS nanoparticle based multiwall carbon nanotube–maleic anhydride–1-octene nanocomposites. Fullerenes, Nanotubes and Carbon Nanostructures. 26: 255-262.
3. Malikov E.Y, Muradov M.B., Akperov O.H., Eyvazova G.M., Puskás R., Madarász D., Nagy L, Kukovecz Á., Kónya Z. "Synthesis and characterization of polyvinyl alcohol based multiwalled carbon nanotube nanocomposites" (2014). Physica E: Low-dimensional Systems and Nanostructures. 61: 129-134.

O.O. İsmayılov, M.B. Muradov
Bakı Dövlət Universiteti
orkhanch@gmail.com

GÜMÜŞ NANONAQİLLƏRİNİN POLİOL ÜSULU İLƏ Cu^{2+} İONLARININ İŞTIRAKI ALTINDA SİNTEZI

Gümüş nanonaqilləri, nanoelektronika, biosensorlar, enerji cihazları, kənd təsərrüfatı, qida texnologiyası kimi bir çox sahələrdə geniş tətbiq olunur [1]. Hazırda gümüş nanohissəciklərinin sintezində poliol prosesinə üstünlük verilir [2,3].

Təqdim olunan işin tərkibində ilk olaraq 7.3 mL etilenqlikolda həll edilmiş polivinilpirolidon (16.45 mq/mL qatılıqlı) sınaq şüşəsində olan 4 mL etilenqlikola əlavə edilir və maqnit qarışdırıcı ilə qarışdırılır. Temperetur 160°C-yə qədər qaldırıldıqdan sonra 390 μL etilenqlikolda həll edilmiş $CuCl_2x2H_2O$ (0.7 mg/mL qatılıqlı) məhlula əlavə edilir. 2 dəqiqə sonra 2.5 mL etilenqlikolda həll edilmiş gümüş nitrat ($AgNO_3$)(43 mg/mL qatlıqlı) reaksiyaya 15 dəqiqə ərzində damcı-damcı əlavə olunur və rəng açıq sarıdan parıltılı boz rənginə dəyişir. Reaksiya gümüş nitrat məhlulu tam əlavə olunduqdan sonra 1 saat ərzində aparılır. Alınan məhlul sentrifuqada ilk öncə astetatla daha sonra distillə suyu ilə təmizlənir. Yekun maddə xassələrin analizi üçün etanolda həll edilir.

Alınmış nümunənin, skanedici eletron mikroskopunda təsviri çəkilmiş, rentgen difraktometrində və ultrabənövşəyi şüa spektrofotometrində tətqiqi aparılmışdır. Alınan nəticələrin analizinə əsasən gümüş nanonaqillərinin formalaşması müşahidə edilmişdir.



Şəkil 1. Gümüş nanonaqillərinin SEM təsviri

Ədəbiyyat

1. Y.N. Xia et al., One-dimensional nanostructures: Synthesis, characterization, and applications. Adv. Mater. 15(5), 353–389 (2003)
2. Y. Sun, Y. Xia, Large-scalesynthesis of uniform silver nanowiresthrough a soft, self- seeding, polyolprocess, Adv. Mater. 14 (2002) 833.
3. Y. Sun, Y. Yin, B.T. Mayers, T. Herricks, Y. Xia, Uniform silver nanowires synthesis by reducing $AgNO_3$ with ethylene glycol in the presence ofseeds and poly (vinyl pyrrol- idone), Chem. Mater. 14 (2002) 4736.

350-400	5,3	8,3	13,5	42,8	30,1	0,24	0,47
400-450	4,7	9,6	13,1	41,0	31,6	0,21	0,51
450-500	4,4	8,3	13,5	44,0	29,8	0,20	0,45
500-550	4,5	9,8	12,0	46,6	27,1	0,20	0,39

Tədqiq olunan neftin 50°C-lik fraksiyalarının struktur-qrup tərkibinin bu fraksiyaların səmərəli istifadə yollarını araşdırmasında istifadə oluna bilər.

Ədəbiyyat

1. Muxtarova G.S., Abdullayeva Y.Ə., Ələkbərova N.H., Şahverdiyeva A.F., Balakişiyeva S.A. Qərbi Abşeron və Abşeron küpəsi neftlərinin müqayisəli tədqiqi./ AMEA-nın akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinə həsr olunmuş "Müasirkimyanın aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfrans, 2-4 oktyabr 2019-cu il, s.105.
2. Abdullayeva Y.Ə., Ələkbərova N.H., Babayeva F.Ə., Şahverdiyeva A.F., Balakişiyeva S.A.. Qərbi Abşeron yatağı neftindən alınan qaz fraksiyasının səmərəli istifadəsi./ AMEA-nın akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinə həsr olunmuş "Müasirkimyanın aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfrans, 2-4 oktyabr 2019-cu il, s.77.

F.E. Abdullayev
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
fuadabdullayev48@gmail.com

QUDRONUN SUSPENSLƏŞDİRİLMİŞ NANOÖLÇÜLÜ KATALİZATORLARIN İŞTİRAKI İLƏ HİDROKREKİNQİ

Dünya miqyasında neft hasilatının getdikcə azalması neftqazçıxarma sektorunda yeni texnologiyaların tətbiqini zəruri edir. Müasir neft emalı sənayesinin ən aktual problemlərindən biri də ağır neft qalıqlarının emal edilməsi və onun emal dərinliyinin yüksəldilmsiprosesidir. Bu gün inkişaf etmiş bir çox ölkədə emal dərinliyi 85-90% arasında dəyişdiyi halda, bu rəqəm MDB ölkələrində 70-72 % arasında dəyisir. Aparıcı neft şirkətləri neftin ağır qalıqlarından yüksək keyfiyyətli məhsulların alinmasına, hidrogen sərfinin azalmasına,termiki və katalitik emalına böyük investisiyalar ayırırlar. Termiki və termooksidləşdirici metodlar kifayət qədər yetərli imkanlara malik deyillər. Eyni zamanda bu proseslər nəticəsində alınan məhsulların keyfiyyəti müasir tələblərə cavab vermir. Ona görə də yeni üsullar işlənib hazırlamaq lazım gəlib. Müasir dövrdə yüksək keyfiyyətli motor yanacaqları almaq üçün ənənəvi hidrokrekinq prosesləri ən effektivüsul hesab olunur. Həmçinin ağır qalıqlarıntərkibində olan ağır metal birləşmələri, azotlu -kükürdlü birləşmələr,qətran- asfalt maddələrikatalizatoru zəhərlənərək sıradan çıxartdığı üçün, qalıqların əvvəlcədən asfaltsızlaşdırma, metalsızlaşdırma, hidrokükürdsüzləsdirmə kimi əvvəlcədən hazırlanma proseslərinə ehtiyac duyulur. [1,3,4]

Qudronun hidrokrekinq prosesi üçün katalizator kimi suspenzləşdirilmişnanoölçülü təbii seolitdən istifadə edilmişdir. Təbii seolitlər asan istehsal olunur. İlkin xammal kimi isə Bakı neftlərindənalınan qudrondan istifadə olunmuşdur. Hidrokrekinqdən alınan nəticələrin analizi göstərir ki, proses radikal karbonium-ion mexanizmi üzrə gedir. Qudronun hidrokrekinqində çoxlu miqdarda doymuş karbohidrogenlər alınır.Reaksiyanin başlandığı ilk anlarda alınan koks ümumi prosesin getməsinə katalizatorluq edir.Təcrübələr 400–450^{0}C temperaturda, 0.5–6 MPa təzyiqdə, həcmi 1 l olan fırlanan avtoklavda reaksiya müddəti 0.5 saat olmaqla aparılmışdır. İlkin nəticələrə əsasən qudronun suspenzləşdirilmişnanoölçülü təbii seolitin iştirakı ilə hidrokrekinqindən bir dəfəyə 58–61 kütlə % açıq rəngli neft məhsulları alınmışdır. Bunun 40–43 %-nibenzin (q.b.–2000C),

18–20%-idizel (200–360^{0}C) fraksiyası təşkil edir. Nanoölçülü katalizatorun iştirakı ilə qudronun hidrokrekinqi prosesində aparılan tədqiqatlardan belə nəticə çıxarmaq olarki, prosesi aşağı təzyiqdə (0.5 MPa) apardıqda benzin fraksiyasının çıxımı dizel fraksiyasından daha çox, hidrogenin yuxarı təzyiqində (2–6MPa) apardıqda isə dizel fraksiyasının çıxımı benzin fraksiyasının çıxımından daha çoxdur. Təzyiq və temperature rejimini ayarlayaraq hidrokrekinqi istənilən istiqamətə – benzin və ya dizelin alınması istiqamətinə yönəltməkolar. Əsas məqsədimiz daha çox benzin fraksiyası almaqdır. [2,5,6]

Nəticə olaraq biz suspenzləşdirilmiş nanoölçülü təbiiseolitdən istifadə etməklə qudronun hidrokrekinqi prosesi vasitəsilə 55–60 kütlə % əlavə açıqrəngli neftməhsullarının almağa nail oluruq. Qudronun nanoölçülü təbii seolitin iştirakı ilə hidrokrekinqindən alınan benzin fraksiyası stabil olmaqla tərkibində aromatik və doymamış karbohidrogenlərin miqdarının aşağı olması ilə xarakterizə edilir. Oktan ədədi tədqiqat üsulu ilə 70–72 arası təşkil edir. Benzin fraksiyası hidrotəmizlənmədən sonra komponent kimi və ya piroliz prosesinə xammal kimi istifadə edilə bilər. Dizel fraksiyası da tərkibində aromatik karbohidrogenlərin az olması ilə xarakterizə olunurki, bu da setanədədinin 44–46 olmasına gətirib çıxarır. O da hidrogenlə təmizləmə prosesindən sonra dizel yanacağına komponent kimi istifadə oluna bilər

Ədəbiyyat

1. http://nanomaterials.bsu.edu.az/
2. http://stat.gov.az
3. Peshnev B.V., Nikolayev A.I., Kuzmicheva G.M., Asilova N.Y., Podlesnaya M.V. TheFormation of carbon nanofibersbydisproportionation of CO. Himiyatverdogotopliva –SolidFuelChemistry. 2007, no. 4, pp. 66-70. (InRussian).
4. Abdullayev E., Abbasov V., Ibrahimov H., Mukhtarova G. Et al. Self-Healing Coatings Based on Halloysite Clay Polymer Composites for Protection of CopperAlloys. ACS Applied Materials&Interfaces. 2013, no. 5, pp. 4464-4471.
5. Səfərov Q.Ġ., Məmmədov A.S. Neft və qaz emalının texnologiyası. Bakı, 2000
6. Yüsifzadə X.B. Azərbaycanın neft-qaz sənayesinin müasir vəziyyəti və gələcək Perspektivləri. ANT, №1, 2016.
7. SOCAR-ın Baş ofisinin "Nanotexnologiyalar" Departamentinin hesabatları.

Н.Т. Мамедова
SOCAR-Азербайджан, г. Баку,AZ1029
У.А. Кулиева
Институт Радиационных Проблем НАНА,
Азербайджан, г. Баку,AZ1143,. Б.Вагабзаде, 9
memmedova_nermin@box.az

ВЛИЯНИЕ ИСХОДНОЙ КОНЦЕНТРАЦИИ ЛАУРИЛ СУЛФАТ НАТРИЯ НА РАДИОЛИТЧЕСКОЕ ПРЕВРАЩЕНИЕ ПРИ РАДИОЛИЗЕ ВОДНЫХ РАСТВОРОВ

Синтетические поверхностно-активные вещества (СПАВ), как и нефть и нефтепродукты, фенолы и другие загрязнители являются наиболее распространенными и типичными токсичными загрязнителями водоемов. Значительное токсичное действие СПАВ проявляется при концентрациях 2 г/м3.Лаурилсульфат натрия (ЛСН) является основным компонентом СПАВ (до 15%) в составе моющихся средств (мыло, стиральные порошки).В бытовых и моющих средствах содержание активного агента (СПАВ) достигает 20-30%[1].

В настоящее время для очистки сточных вод от синтетических поверхностно-активных веществ, применяются методы адсорбции, коагуляции, флотации, электрохимической очистки, ионохимической очистки и др.[2].

Среди этих методов радиационная очистка является наиболее широко применяемым методом благодаря ряду преимуществ: скорость реакции зависит от количества энергии излучения в единицу времени, нет необходимости добавлять в воду дополнительные реагенты и процесс идет в одну стадию. Установлено, что для удаления 90-95% СПАВ при начальной концентрации 200 г/дм3 необходимо 106 Рад[3].Ранее нами изучено изменение pH-показателя, химического потребления кислорода (общей концентрации углеводородов) и концентрации СПАВ при гамма облучении водных растворов лаурилсульфат натрия при исходных концентрациях 0,5 и 1 мг/л[4].

В данной работе изучено измененииеконцентрации СПАВ в зависимости от поглощенной дозы с исходными концентрациями 0,5 и 1 мг/л.

Подготовленные образцы облучали гамма излучением от изотопа 60Co в статических условиях, в стеклянных ампулах (100 мл раствор) при комнатной температуре при наличии растворенного кислорода (2,7х10-4М). Мощность дозы определена ферросульфатной дозиметрии и составляла 0,14 Гр/сек. Поглощенная доза составляла 0,2÷.36 кГр.

Полученные результаты показывают, что концентрация ЛСН резко уменьшается при дозе> 0,2 кГр и достигает стационарное значении при больших дозах. В этом случае радиационно-химический выход составляет 0,06 молекул / 100 эВ для ЛСН с концентрацией 0,5 мг/л. При увеличении концентрации в 2 раза радиационно-химический выход достигает 0,16 молекул / 100 эВ. Степень разложенияЛСНсоставляют 95 и 97% при 0,5 и 1 мг/л соответственно.

Литература

1. https://ru-ecology.info/term/6310
2. Алексеева Е., 2007. Физико-химическая очистка сточных вод. – М.: Ассоциации строительных вузов. 248.
3. Волкова Г.А., Сторожук Н.Ю. Методы очистки сточных вод, содержащих синтетические поверхностно-активные вещества // Вестник Брестского государственного технического университета. 2012. №2, С.38-41
4. Мамедова Н.Т., Кулиева У.А., Курбанов М.А.. Радиационно-химическое разложение СПАВ в сточных водах //ЭПЭБ-2019,с.970-972

R.R. Əsgərov

Azərbaycan Dövlət Neft və Sənaye Univeristeti,

Bakı şəhəri, Azərbaycan

refiasgerov@gmail.com

PROPANIN AROMATİZASİYASI PROSESİNDƏ ZSM-5 ƏSASLI KATALİZATORUN TƏDQİQİ

ZSM-5 əsaslı seolit tərkibli katalizatordan istifadə etməklə propanın çevrilməsini öyrənmək və katalizatorun təsiredici xüsusiyyətlərini müəyyən etməkdir.

Aparılan təcrübələrə və araşdırmalara əsasən belə nəticəyə gəlmək olarki, C_3-ün çevrilməsinin yüksək səmərə verməsini təmin edən

zənginləşdirilmiş ZSM-5 tərkibli katalizatorlar bahalı metallar saxlamır, asanlıqla bərpa edilə bilir və yüksək mexaniki xassəyə malikdir.

Kimya və neft-kimya sənayesində artan katalitik texnoloji proseslər katalizator dizayınına olan diqqəti dahada artırır. Bizim yanaşmamız «Discovery Informatics» adlı metodologiya ilə əlaqəli iterative modellər haqqında məlumat almaq üçün əsaslı yanaşmadır.

Karbohidrogenlərin aromatik maddələrə çevrilməsi üçün ilk uğurlu cəhdləri həyata keçirilmiş və başlanğıc xammal kimi daha aktiv alkenlər inkişaf etdirilmişdir. Tamamilə bu materialların deaktivasiya dərəcəsi əlavə tətbiqetmələrin qarşısını aldı[1-2].

Katalitik proseslərdə səth turşuluğunun rolunun aydınlaşdırılmasında HZSM-5-in turşuluğunun xarakteristikası vacibdir. Xüsusiyyətə turşu sahələrinin növü, sayının və gücünün təyin edilməsi daxildir. Adsorbentlərin infraqırmızı spektroskopiyası turşu sahəsini təyin etmək üçün istifadə edilmişdir. Seolit məsamələrinin desorpsiya müddətli TPD təcrübələri üçün molekulyar diffuziya ilə əlaqədardır[3].

Propanın yüksək səmərə verməsini təmin etmək üçün zənginləşdirilmiş seolit tərkibli katalizatorlar, bahalı metallar saxlamır, asanlıqla bərpa ediləcək, yüksək mexaniki xəssəyə malikdirlər.

Propandan aromatic karbohidrogenlərin alınması, istifadə olunmuş katalizatorun tərkibində Kristal fazanın miqdarının artması ilə əlaqədardır.

Propanın aromatic karbohidrogenlərə çevrilməsi prosesinin temperaturunun artması ilə xammalın və koksun miqdarının artması müəyyən olunmuşdur.

Ədəbiyyat

1. А.В. Кравцов, Н.В. Ушева, О.Е. Мойзес, А.Ф. Федоров Математическое моделирование многокомпонентных химических процессов, Издательство Томского политехнического университета 2015, 108 səh.
2. B.Ş.Şahpələngova, N.Ə.SəlimovaƏsas üzvi və neft kimya sintezinin texnologiyasi, BAKI 2016, 430 səh.
3. Caeiro, G.Carvalho, R.H. Wang, X.Wang, X.; Lemos, M.A.N.D.A.Lemos, F. Guisnet, M. Ribeiro, F.R. Activation of C2–C_4alkanesoveracidbifunctionalzeolitecatalysts. J. Mol. Catal. A Chem. 2006, 255, 131–158.

G.İ. Sadıqova, A.S. Hüseynov
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
sadigova.gulsum@gmail.com

KARBAMİD VƏ AMMONYAK İSTEHSALINDA KARBON 2-OKSİDİN ROLU

Karbon qazı nadir tapıntı deyil, çox vaxt aralıq məhsul kimi alınır və bu da onun maya dəyərinə çox ciddi təsir edir. Ona görə də karbon qazı ən ucuz qazlar siyahısına daxil edilir. Karbamid istehsalında karbon 2-oksidin rolu böyükdür. Karmabid azot gübrəsi üçün vacibdir və onun dünya üzrə istehsal sürəti ən yüksək səviyyədə qalmaqdadır.

Baxılan aqrokimyəvi maddənin istehsalı ammonyak istehsal qurğusu ilə paralel aparılır.

Bu istehsalatda klassik sxem üzrə təbii qazın konversiyasından CO_2 -nin ayrılması realizə edilir: etanolamin (AM-76) və potaş məhlulu tətbiq etməklə. Birinci üsul iki əsas kimyəvi reaksiya ilə yazılır:

$$2RNH_2 + H_2O + CO_2 \leftrightarrow (RNH_3)_2CO_3$$

$$(RNH_3)_2CO_3 + H_2O + CO_2 \leftrightarrow 2RNH_3HCO_3$$

(a) və (b) tənlikləri etanolaminlə karbon-oksidinin udulmasının sadə modelidir. Bu zaman son məhsul kimi etanolaminin karbonatları və bikarbonatları alınır.

35-45^{0}C- də bu reaksiyalar sağa tərəf (absorbsiya), lakin 1050C-də və daha yüksək temperaturlarda reaksiya sola (desorbsiya) doğru gedir.

Ammonyakın CO_2-dən təmizlənməsinin iki yayılmış üsulu potaşın sulu məhlulunun istifadəsi ilə əlaqədardır.

Bu, aşağıdakı kinetik model ilə ifadə edilir.

$$K_2CO_3 + H_2O + CO_2 \leftrightarrow 2KHCO_3$$

45-55°C-də reaksiya sağa doğru (absorbsiya), t ≥102^{0}C-də isə sola (desorbsiya) doğru gedir.

Bu reaksiya ilə paralel olaraq K2CO3 və KHCO3-ün elektrik dissosasiyası baş verir, yəni:

$$K_2CO_3 + H_2O \leftrightarrow 2K+ + HCO_3^- + OH^-$$

$$KHCO_3 + H_2O \leftrightarrow K+ + H_2CO_3 + OH^-$$

Hidrolizin I mərhələsi CO_{-3}^{2-} və HCO_3^- ionları arasında tarazlığın olması ilə müşahidə olunur. II mərhələ HCO_{-3}^-

İonu ilə H_2CO_3 molekulu arasında tarazlıq yaranır.

Absorbsiya və desorbsiya proseslərinin effektivliyini artırmaq üçün, aktivliyi artırmaq üçün potaş məhluluna dietanolamin və karroziya əleyhinə V_2O_5 əlavə edilir. Bu komponentlər sulu məhlulda bu formada olur:

K_2CO_3 24-30% küt. ; dietanolamin 2,0-3,5 % küt. ; V_2O_5 – 0,4% kütlədən az olmamalıdır.

Müəssisədə alınan karbon 2-oksidin miqdarı imkan verir ki, səbnayedə 36%-i işlədilə bilər. Bu gün üçün yalnız 11%- işlədilir.

Qazın qalan hissəsi atmosferə buraxılır. Sonda CO_2-nin tüstü qazlarının tərkibindən absoberlərin sulu məhlullarının, monoetanolaminin və digər birli-aminlərin köməkliyi ilə çıxarılmasını təklif etmişik. Çıxış zamanı bütün materiallar təqdim olunacaq.

Ədəbiyyat

1. Лавренченко Г.К., Копытин А.В. Повышение эффективности подачи диоксида углерода на синтез карбамида /Научно-технический и производственный журнал. № 2 (2011) Технические газы. с 27-31
2. ПятничкоА. И. Иванов Ю.В. Оптимизация состава адсорбента аминоводы узла извлечения CO_2 из дымовых газов. Технические газы 2011, №1 с 31-40

I.G. Mamedov, S.N. Babayeva

Baku State University

babasoy.93@gmail.com

SOME ACETOPHENONES İN THE SYNTHESİS OF NEW HETROCYCLİC COMPOUNDS

Acetophenones are aromatic ketones and referred interesting reactants in organic synthesis. Different acetophenone derivatives are precursor materials in the synthesis of many heterocyclic systems, such as pyrazoles, pyrimidines, imidazoles, isoxazolesetc [1].

Due to the their differentfunctionality these compounds confer biologicalactivities, such as antimicrobial, antibacterial,antifungal, anticancer, antiviral, anti-inflammatory,antihyperglycemic[2, 3].

Taking into account of their pharmaceutical actuality the synthesis of imidazole and dihydropyrimidinederivatives were investigated.



The structure of 2-amino-5-benzyl-5-(4-bromophenyl)-3,5-di-hydro-4H-imidazol-4-one (1),2-amino-5-benzyl-5-(4-bromophenyl)-3,5-dihydro-4H-imidazol-4-one (2) and 4-(4-bromophenyl)-6-(thiophen-2-yl)-5,6-dihydropyrimidin-2(1H)-imine (3) was confir-med by using of NMR spectroscopy.

References

1. M.V.Jyothi, Y.R. Prasad, P. Venkatesh, M.Sureshreddy, 2012, Chemical science transactions, p. 716.
2. D.G.Waller, A.P. Sampson, Medical pharmacology and therapeutics, 2017, p. 581.
3. R.L. Wattier, W.J. Steinbach, 293-Antifungal agents. Principles an practice of pediatric infectious diseases, 2018, p.1532.

A.M. İsayeva, R.A. Rəhimov
AMEA Neft-Kimya Prosesləri İnstitutu
aygunismayilova@mail.ru

N,N,N',N'-TETRAKİS(2-HİDROKSİPROPİL)ETİLENDİAMİN VƏ ALİ KARBON TURŞULARI (C14, C16) ƏSASINDA GEMİNİ TİPLİ SƏTHİ-AKTİV MADDƏLƏRİN SİNTEZİ VƏ XASSƏLƏRİNİN TƏDQİQİ

Məlumdur ki, su hövzələrindən neftin çıxarılması və daşınması prosesləri zamanı baş verən qəzalarda il ərzində təxminən 1 mln tondan çox neft okean və dənizlərə tökülür [1]. Su səthinə dağılmış neft təbəqəsi qalın olduqda onu mexaniki üsullarla kənarlaşdırmaq mümkündür. Lakin nazik neft təbəqəsini su səthindən təmizləmək bir qədər çətinlik törədir. Belə nazik neft təbəqələrini su səthindən

kənar etmək üçün yüksək neftyığıcı və neftdispersləyici xassəyə malik səthi-aktiv maddələrin (SAM) sintezi və eyni zamanda onların xassələrinin tədqiqi mühüm əhəmiyyət kəsb edir [2].

Ədəbiyyatdan məlum olduğu kimi SAM-ların xassələri hidrofil və hidrofob qrupların təbiəti və quruluşundan asılı olaraq dəyişir. Son zamanlar dialkil qruplu (gemini tipli) SAM-lar tədqiqatçıların böyük marağına səbəb olmuşdur. Çünki gemini tipli SAM-lar oxşar quruluşlu sadə SAM-lara bir sıra üstün xassələrə malikdir.[3]. Bu baxımdan təqdim edilən işin məqsədi nisbətən daha sadə üsulla, yəni etilendiamin, propilen oksidi və miristin və palmitin turşularıəsasında yeni dialkil qruplu SAM-ların sintezi və xassələrinin öyrənilməsidir.

Tədqiqat işi ikimərhələli üsulla aparılmışdır. İlkin mərhələdə etilendiaminilə propilen oksidi 1:4 mol nisbətində götürülərək oksipropilləşmə reaksiyası aparılmışdır. Reaksiya otaq temperaturunda və katalizatorsuz şəraitdə aparılmışdır. Reaksiyanın ümumi sxemi aşağıdakı kimi göstərmək olar:



Reaksiya nəticəsində sintez olunmuş N,N,N',N'-tetrakis(2-hidroksipropil)etilendiamin sarımtıl rəngli özlü bərk maddədir. O suda, etanolda, heksanda və asetonda yaxşı həll olur. Sonrakı mərhələdə isə 50-55^{0}C temperaturda bu maddənin miristin və palmitin turşuları ilə ayrı-ayrılıqda reaksiyaları aparılmışdır. Reaksiyanın ümumi sxemini belə göstərmək olar:



burada R= $C_{13}H_{27}$;$C_{15}H_{31}$.

Reaksiya nəticəsində sintez edilmiş SAM-lar pastaşəkilli maddələrdir. Onlar suda, etanolda, asetonda yaxşı həll olur. Bu SAM-ların quruluşları İQ- və NMR- spektroskopiya metodları vasitəsilə təsdiq edilmişdir.Eyni zamanda tenziometrik metodla alınmış maddələrin sulu məhlullarının hava-su sərhədində səthi gərilmələri,konduktometrik üsulla isə xüsusi elektrik keçiricilikləri təyin edilmişdir.

Tenziometr vasitəsilə su-hava sərhədində 25^{0}C-də aparılmış tədqiqatların nəticələrindən görünür ki, palmitin turşusu əsasında alınmış duz səthi gərilmənin qiymətini 71,73mN/m-dən 24,12 mN/

m-ə qədər, miristin turşusu əsasında alınmış duz isə səthi gərilmənin qiymətini 71,97 mN/m-dən 23,55 mN/m-ə qədər azaldır. Sintez olunmuş SAM-ların müxtəlif qatılıqlı sulu məhlullarının konduktometrik ölçmələri isə göstərir ki, alınmış gemini SAM-lardaalkil zəncirinin uzunluğu artdıqca onların sulu məhlullarının xüsusi elektrik keçiricilikləri azalır.

Ədəbiyyat

1. Mariano A.J., Kourafalou V.H., Srinivasan A., Kang H., Halliwell G.R., Ryan E.H., Roffer M. Dynamics of Atmospheres and Oceans. 2011, 52, pp. 322-340
2. Воробьев Ю.Л., Акимов В.А., Соколов Ю.И. Предупреждение и ликвидация аварийных разливов нефти и нефтепродуктов. М.: Ин-октаво, 2005. 368с
3. S.D. Wettig, P. Nowak, R.E. Verrall, Thermodynamic and aggregation properties of gemini surfactants with hydroxyl substituted spacers in aqueous solution, Langmuir, 18(2002) 5354-5359.

S.R. Hacıyeva, N.T. Şəmilov, Q.İ. Bayramov, F.E. Hüseynov, E.M. Qədirova, T.İ. Əliyeva, Z.T. Vəliyeva, A.A. Səmədova

Bakı Dövlət Universiteti

aytan.samad@gmail.com

α-XLOROKTOKSIMETİL EFİRİ VƏ XLORAZON ƏSASINDA DİFENİLKARBAZİDİN YENİ BİRLƏŞMƏSİNİN SİNTEZİ VƏ KORROZİYA İNHİBİTORU KİMİ TƏDQİQİ

Neft-qaz və neft-kimya sənayesində aqressiv mühitdə istismar olunan polad texnoloji avadanlıqların korroziyadan mühafizə olunmasında son 50 il ərzində ərzində azot tərkibli üzvi birləşmələrdən inhibitor kimi istifadə olunması geniş yer almışdır. Istehsalat prosesləri və elmitədqiqat işlərinin nəticələrinə əsasən müəyyən edilmişdir ki, tərkibində azot atomları, $ROCH_2$ funksional qrupları, ikiqat rabitələri çox olan üzvi birləşmələr yüksək effektli korroziya inhibitor xüsusiyyətlərinə malikdir. Buna görə də son zamanlar üzvi və neft kimya sintezində həmin tipli birləşmələrin sintezinin aparılması və

inhibitor effektivliyinin müəyyənləşdirilməsi üzrə tədqiqat işlərinin həyata keçirilməsi əsas aktual mövzular kimi qiymətləndirilir.



Bu məqsədlə tərəfimizdən C8H17OCH$_2$Cl efiri və (xlorazon) əsasında difenilkarbazidin tərkibində 28 azot atomu, 12 C8H17O-CH$_2$ –funksional qrupu, 10 C6H5-qrupu, 55 ikiqat rabitə olan yeni birləşməsi sintez olunmuşdur.

Sintez tərəfimizdən əvvəllər işlənilmiş, (1,2) ədəbiyyatda göstərilən metoda uyğun olaraq bir neçə mərhələdə aparılmışdır.

Sintez edilmiş N1, N2, N4, N5-tetra(N1',N1'-dioktoksimetil-N1''-monooktoksimetil) difenilkarbazid birləşməsinin inhibitor effektivliyinin müəyyənləşdirilməsi laboratoriya şəraitində təşkil edilmiş ən güclü aqressiv (3% NaCl+neft(10:1)+ H$_2$S 500 mq/l; 0,3N HCl + benzin (1:7)+H$_2$S 1000 mq/l) mühitində 4 saat müddət ərzində 85 0C-də aparılmışdır. Həmin polad lövhənin korroziya sürəti "qravimetrik" üsulu ilə müəyyənləşdirilmişdir.

Tədqiqat zamanı müəyyən olunmuşdur ki, difenilkarbazidinsinntez edilmiş (şərti olaraq KB-1) yeni birləşməsi hətta 0,012-0,025% qatılıqda korroziya inhibitoreffektivliyi 98,96 -100%təşkil edir.

Hal-hazırda neft-qaz və neft-kimya sənayesində istifadə olunan effektli inhibitor kimi və həmçinin patent və ya müəlliflik şəhadətnamələrinə layiq görülmüş elmi tədqiqat işlərində müəyyən edilmiş inhibitorlara nisbətən KB-1 inhibitorunun effektivliyi (istifadə olunan qatılıqlara görə), 200 dəfə üstünlüyə malikdir.

Ədəbiyyat

1. Hajıyeva S.R., Shamilov N.T., Huseynov FE, Aliyeva T.I., Rafiyeva H.L, JafarovaN.M.Gullarli G.H.. Synthesis and Study of New Derivatives of Diphenylcarbazide on the Base of N1`, N1`-Dioctoxymethylchlorazone Ether. Journal of ecology & natural resources (JENR), volume 4 issue 1, 2020, p.1-5
2. Patent."N1,N2-di(N1',N1'-dioktoksimetilazon-N'-monooktoksimetilazon)- N4,N5-di (N1',N1'1-dioktoksi-metilazon- N'–monooktoksimetilazon)difenilkarbazidkor-roziyainhibitorukimi"2020.

G.Z. Heydərli
Azərbaycan MEA Neft-Kimya Prosesləri İnstitutu
heyderligunay6@gmail.com

METİLTSİKLOHEKSİLFENOLLARIN SİRKƏ TURŞUSU İLƏ ASİLLƏŞMƏ MƏHSULLARININ POLİSTİROLDA FOTOSTABİLİZATOR KİMİ SINAQLARI

Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə polimer materialların, kauçukların, yağların istehsalından daha çox onlara əlavə olunan antioksidantların, stabilizatorların, aşqarların, plastifikatorların istehsalına üstünlük verilir. Bu kimyəvi əlavələrin içərisində alkilfenol əsaslı kimyəvi birləşmələr xüsusi yer tutur[1-3]. Bu tip kimyəvi əlavələrin ən mühim üstünlüyü polimerlərin rəngini dəyişməməsi, işığın, havanın oksigeninin, temperaturun təsirinə davamlılığıdır. Məhz bu səbəbdən müasir dövrdə sənayedə istifadə olunan kimyəvi əlavələrin xeyli hissəsini alkilfenol əsaslı kimyəvi birləşmələr təşkil edir. Kimyəvi əlavələrin seçimindən asılı olaraq, onlar foto-, termostabilizator, antioksidant və s. funksiyaları yerinə yetirirlər.

Təqdim olunan işdə para-[1(3)-metiltsikloheksil]fenolların sirkə turşusu ilə yeni katalitik sistemdə asilləşmə reaksiyası nəticəsində sintez olunmuş 2-hidroksi-5[1(3)-metiltsikloheksil]asetofenonların polistirolda fotostabilizator kimi sınaqlarının yoxlanılmasından bəhs edilir.

Metiltsikloheksilasetofenonların alınması üçün ilkin xammal kimi para-[1(3)-metiltsikloheksil] fenollardan və sirkə turşusundan istifadə edilmişdir.

para-[1(3)-metiltsikloheksil]fenolların sirkə turşusu ilə qarşılıqlı təsir reaksiyasının tənliyi aşağıdakı kimidir:





2-hidroksi-5[1(3)-metiltsikloheksil]asetofenonların(TAAF) polistirolun (PS) fotooksidləşməsinə stabilləşdirici təsirini öyrənmək məqsədilə 2,4,6-üçlü-butilfenol etalon olaraq götürülmüş, "PS+-TAAF-1", "PS+TAAF-2" və "PS+2,4,6-üçlü-butilfenol" sistemlərindən istifadə edilmişdir. 0.5 küt.%-i 2-hidroksi-5(1-metiltsikloheksil)-asetofenon (TAAF-1), 2-hidroksi-5(3-metiltsikloheksil)-asetofenon (TAAF-2) və 2,4,6-üçlü-butilfenol əlavə edilmiş polistirolun benzoldakı məhlulundan ≈30mkm qalınlığında nümunələr hazırlanmışdır. Plastinkalar PRK-2 civə lampası ilə şüalandırılmışdır. Lampa ilə nümunə arasındakı məsafə 0.2 m-dir. Nəticədə müəyyən edilmişdir ki, asetofenonlar əlavə edilmiş polistirol nümunələrinin 8 saat fotoşüalanmadan sonra optiki sıxlıqlar sabit qalır.

"PS+TSAAF-1", "PS+TSAAF-2" və "PS+2,4,6-üçlü-butilfenol" sistemləri fotoşüalandırılmışdır; onların stabilləşdirici təsir effektləri (STE) hesablanmış və cədvəldə verilmişdir

Cədvəl. 1

PS-la 0.5 küt.%-i TSAAF-1, TSAAF-2 və 2,4,6 üçlü butil fenol əlavə edilmiş sistemlərin stabilləşdirici təsir effekti

İnhibitor	STE
2,4,6-üçlü butil fenol	3.2
TSAAF-1	4.7
TSAAF-2	4.9

Müəyyən olunmuşdur ki, TSAAF-1 və TSAAF-2-nin STE-i məlum fotostabilizator 2,4,6-üçlü-butilfenolun STE-indən yüksəkdir və bu məqsəd üçün tövsiyə oluna bilər.

Ədəbiyyat

1. Магеррамов А.М., Байрамов М.Р. Химия алкенилфенолов – Баку: Издательство Бакинского Государственного Университета. 2002. 248 с.
2. Нагиева М.В., Агамалиев З.З., Расулов Ч.К. Фосфор содержащиецеолиты – эффективные катализаторыдля реакции циклолакилирования фенола// XII Международная конференция по нефтехимии, Звенигород: 17-21 сентябрь, 2018, с. 449-450.

F.A. Quliyeva
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı ş.,
quliyevafatma1997@gmail.com

İKİLİ BUTİL SPİRTİNİN ÇEVRİLMƏ DƏRƏCƏSİNƏ TƏSİREDƏN AMİLLƏRİN TƏDQİQİ

Neft emalı və neft kimya sənayesinin vacib istiqamətlərindən biri kiçik molekullu spirtlərin katalitik çevrilməsi prosesinin öyrənilməsidir. Bununla əlaqədar olaraq, metiletilketonunun effektiv texnologiyasının və iqtisadi cəhətdən əlverişli emalının tədqiqi aktual məsələdir.

Metiletilketon neft emalı sənayesində qiymətli məhsullardan biridir.O, həlledici kimi lak, boya sənayesində, sunigön,plastik maddələrin istehsalında, yağların parafinsizləşdirilməsində və ətriyyat istehsalında geniş istifadə edilir[1].

İşdə məqsəd ikili butil spirtinin çevrilmə dərəcəsinə müxtəlif amillərin təsirini müəyyən etməkdir.

İlk olaraq ikili butil spirtinin dehidrogenləşmə prosesinə oksigenin rolu müəyyən edilmişdir. Proses atmosfer təzyiqində aparılmışdır, spirtin verilməsinin həcmi sürəti 1,7saat-1 olmuşdur, temperatur 100-2000C intervalda dəyişmişdir. Alınmış nəticələr cədvəl 1-də verilmişdir. Göründüyü kimi, oksigenin iştirakı nəticəsində yan məhsulların miqdarı artır,ona görə də metiletilketonun çıxımı azalır.

Cədvəl 1

Oksigenin xammalın konversiyası və əmələ gəlmişməhsulların tərkibinə təsiri

T,0C	Tmetiletil-keton, 0C	Sefir	K%
100	32,1	-	72
125	34,4	-	74
150	46,2	8,3	91
175	37,3	22,5	97
200	34,1	29,2	98

Sonrakı tədqiqatlarda ikili butil spirtinə temperaturun təsiri öyrənilmişdir. İkilibutil spirtinə temperaturun təsiri və alınmış məhsulların tərkibi suyun verilməsinin həcmi sürəti 1,7 saat-1 olduqda, atmosfer təzyiqində və 100-2000C temperatur arasında öy-

rənilmişdir. Nəticələr cədvəl 2-də göstərilmişdir.

Temperaturun dəyişilməsi əlavə reaksiyalara daha çox təsir edir. Temperaturun yüksəldilməsi nəticəsində metiletilketonun çıxımı 1500C temperaturda maksimum qiymətdən keçir, metiletilketonun selektivliyi azalır və bununla bərabər mürəkkəb efir əmələ gəlir. Göstərilən temperatur intervalında suyun verilməsinin həcmi sürəti 1,7 saat-1 olduqda, spirtin konversiyası 15,1%-dən 81,3%-ə yüksəlir, selektivliyi isə 87%-dən 51%-ə enir.

Cədvəl 2

Məhsulların tərkibinə və konversiyasına temperaturun təsiri

Temperat T, ^{0}C	Metiletilketonun çıxımı, α MEK %	Mürəkkəb efirin çıxımı, α ef %	Buten–1%	Konversiya K, %	Selektivlik S,%
100	13,3	-	1,7	15,1	87
125	40,5	8,7	1,3	51	79
150	54	9,1	0,7	64,7	84
200	41,2	40,1	0,6	81,3	51

Təqdim olunan işdə ikili butil spirtinin dehidrogenləşməsi zamanı metiletilketonun çevrilməsi prosesinə təsir edən amillər (oksigen və temperatur) araşdırılmışdır. Aydın olmuşdur ki, temperaturun yüksəldilməsi konversiya dərəcəsini artırır.

Ədəbiyyat

1. Чесноков В.В. Введение в курс органической химии. Учеб. пособие. Новосибирск: НГТУ, 2008, 200с.

F.A. Quliyeva, O.N. Cavadova, S.E. Hüseynova, İ.Q. Məmmədov
Bakı Dövlət Universiteti
sahla.hussynova@bk.ru

B10 YANACAĞINDA OKSİGEN SAXLAYAN BİRLƏŞMƏLƏRİN AŞQAR KİMİ TƏDQİQİ

Dünya iqtisadiyyatının intensiv inkişafı motor yanacağı istehlakının həcminin artırılmasını tələb edir ki, bu da bərpa olunmayan

təbii ehtiyatların tükənməsi, karbohidrogen xammalının qiymətinin artması və ətraf mühitin çirklənməsi kimi nəticələrə səbəb olur. Buna görə də bir çox inkişaf etmiş dövlətlər ənənəvi enerji mənbələrini əvəz edə biləcək alternativ, bərpa olunan enerji mən-bələrinin axtarışı problemi ilə üzləşiblər. Ən çox istifadə olunan al-ternativ yanacaqlardan biri ekoloji cəhətdən təmiz və istismarda təhlükəsiz biodizelyanacağıdır.Biodizeldizel mühərrikləri ilə həm təmiz formada,həm də dizel yanacağı ilə qarışıq şəklində nəqliyyat vasitələri üçün uyğun olan yeganə alternativ enerji mənbəyidir[1, 2].

Tərəfimizdən yeni katalitik sistemləsintezolunanbiodizelindizelləhəcm nisbətində qarışığındanB10hazırlanmışdır.Yan-acağamüxtəlif nisbətlərdə şam ağacının qozasından alınan yağvətsiklopentanon ilə qliserinin kondensləşmə məhsulu olan tsiklikketal əlavə edilərəkASTM standartlarına uyğunistismar parametrləri tədqiq edilmişdir.

Yanacağa oksigen tərkibli üzvi əlavələr daxil etdikdən sonra əldə olunan nəticələr bir çox istismar xassələrininyaxşılaş-dırmasınıdeməyə əsas vermişdir.

Ədəbiyyat

1. G.Dwivedi, S.Jain, M.P.Sharma, Impact analysis of biodiesel on engine performance-areview, Renewable and Sustainable Energy Reviews, 2011, 15,p. 4633-4641.
2. M.R.Erdiwansyah, An overview of higher alcohol and biodiesel as alternative fuels in engines,Energy Reports, 2019, 5, p. 467-479.

T.M. Nağıyev, T.E. Maniyeva
Bakı Dövlət Universiteti
tamilamaniyeva.e@gmail.com

2-METİLPİRİDİNİN AZOT 1-OKSİDLƏ KOHERENT-SİNXRONLAŞDIRILMIŞ OKSİDLƏŞMƏSİ

Ucuz və əlverişli xammal əsasında azottərkibli heterotsiklik birləşmələrin yeni oksidləşməsi üsullarının işlənib hazırlanması müasir neft kimyanın mühüm istiqamətlərindən biridir. Piridin və onun törəmələrinin azot 1-oksidlə oksidləşməsi reaksiyasının real-

laşması bu perspektivlə bağlıdır. Azot 1-oksiddən istifadə olunması piridin və onun törəmələrininoksidləşməsinisadələşdirilmiş texnologiya ilə aparmağa imkan verir. Buna görə də, piridin və onun törəmələrinin azot 1-oksid ilə oksidləşməsi o nöqteyi nəzərdən böyük maraq doğurur ki, nisbətən ucuz və əlverişli xammal hidrogen peroksiddən (yaşıl oksidləşdirici kimi) istifadə olunması məqsədli məhsulların yüksək çıxım və selektivliklə alınmasını təmin edir [1]. 2-metilpiridinin azot 1-oksidlə koherent sinxronlaşdırılmış oksidləşməsi reaksiyası axın tipli reaktorda aparılmışdır (Şəkil 1.). Reaktorun konstruksiyası azot 1-oksidinin parçalanmamış halda reaksiya zonasına daxil olmasını təmin edir.Başqa kvars boru ilə, ayrılıqda ilkin qızdırılmış halda oksidləşdirilən maddə 2-metilpiridin daxil olur.

Soyutma zonası reaksiya zonasına olduqca yaxın yerləşir. Bu soyutma sistemi o məqsədlə istifadə olunur ki, reaksiya məhsullarının reaksiya zonasının xaricində oksidləşməsinin qarşısı alınsın. Reaksiya məhsullarının miqdari analizi xromatoqrafik yolla həyata keçirilir. Alınmış reaksiya məhsullarının vəsfi təyini xromatokütlə spektroskopiyanın köməyi ilə aparılır.



Şəkil 1. Kvars reaktorunun sxemi

2-metilpiridindən azot 1-oksidin iştirakıiləkoherent-sinxronlaşdırılmış reaksiyasıilə 2,2-etilendipiridin alınmışdır. Təcrübələr 560-610 °C temperatur intervalında aparılmışdır və əsasında ilkin nəticələr əldə edilmişdir [2]. Beləliklə, koherent-sinxronlaşdırılmış, sadələşdirilmiş texnologiya ilə 2,2-etilendipiridin neftkimyada, kimyada və əczaçılıq sənayesində tətbiq olunan birləşmə alınır.

Ədəbiyyat

1. Nagiev T.M., Ali-zadeh N.I., Nagieva I.T. //"Green oxidants"- H_2O_2 and N2O in reaction of coherent-synchronized gas- phase oxidation of pyridineInternational Journal of Applied Science &Environmental Engineering – IJASET 2018. USA. vol.1.Issue 1. P.81-84.
2. Нагиев Т.М. Взаимодействие синхронных реакчий в и биологии. Баку: Элмхимии, 2001. с. 403.

M.R. Bayramov, G.M. Mehdiyeva,
N.A. Vəlizadə, G.M. Həsənova
Bakı Dövlət Universiteti
nezrin_velizade@mail.ru

2-ALLİLFENOL ƏSASINDA BENZOKSAZİNİN SİNTEZİ VƏ ANTİMİKROB XASSƏSİNİN TƏDQİQİ

Polimer materiallarına stabilizator, neft çıxarmada biosid, bioloji aktiv birləşmə metalların korroziyasına qarşı inhibitorlar və digər əhəmiyyətli məhsullar kimi geniş tətbiq sahəsinə malik yeni heteroatom saxlayan tsiklik üzvi birləşmələrin yaradılması həmişə alimlərin diqqət mərkəzində olmuşdur.

Deyilənləri nəzərə alaraq, 2-allilfenol əsasında Mannix reaksiyası üzrə aşağıdakı quruluşa malik benzoksazin sintez edilmişdir.



Reaksiya 2-allilfenolun formaldehid və birli aminlə (propilamin) 90 0C temperaturda, 1,5 saat müddətdə aparılmışdır. Çıxım 80%, n〖_D^20〗= 1,5291, d〖_4^20〗= 1,0223

Sintez olunmuş birləşmənin quruluşu NMR-spektroskopiyası vasitəsilə təsdiq edilmişdir. Alınmış birləşmənin antimikrob xassəsinin tədqiqi nəticəsində müəyyən olunmuşdur ki, bu birləşmə həm bakterisid həm də funqisid xassəyə malikdir.

Ədəbiyyat

1. Mymoona A, Shaikh H, Syed MH, Mohammad MA, Akhter N, et al. Synthesis of somenew 3,4-dihydro-2H-1,3-benzoxazines undermicro waveirradiationinsolvent-freeconditions and their-biologicalactivity. Medicinal Chemistry Research 2010; 20: 1147–1153.
2. Ali-Asgari S, Moradi M, Maskani E, Mirtamizdoust B. Synthesis and Characterization of Novel Heterocyclic Compounds Containing the Benzoxazine Ringby 7-Hydroxycoumarin. Chemistry of Natural Compounds 2017; 53: 1028–1030.
3. Zhang T, Bonnaud L, Raquez J, Poorteman M, Olivier M, et al. Cerium Salts: An Efficient Curing Catalyst for Benzoxazine Based Coatings. Polymers 2020; 12: 415-425.

S.Ə. Niftullayeva, Y.V. Məmmədova, İ.Q. Məmmədov
Bakı Dövlət Universiteti
niftullayevasayad@gmail.com

POLİFUNKSİONAL TSİKLOHEKSENONUN BƏZİ ÇEVRİLMƏLƏRI

Məlumdur ki, pirazol, izaksazol, tiazol, imidazolvə s. kimi heterotsiklik birləşmələr üzvi sintez, eləcə də dərman kimyasında mühüm əhəmiyyət kəsb edir [1-3].

Bunu nəzərə alaraq (E)-4-asetil-2'-hidroksi-5-stiril-5,6-dihidro-[1,1-difenil]-3(4H)-onun hidroksilaminhidroxloridlə qarşılıqlı təsirinə baxılmış və bu zaman izaksazol törəməsinin alınması aş-karlanmışdır.

(E)-4-asetil-2'-hidroksi-5-stiril-5,6-dihidro-[1,1-difenil]-3(4H)-onun dimetilsulfoksid həlledicisində tiosemikarbazidlə qarşılıqlı təsiri zamanı isə tiazol törəməsinin alınmadığı, tsikloheksenon fraqmentində aromatikləşmənin baş verdiyi müşahidə olunmuşdur.



Sintez olunan maddələrin quruluşları NMR spektroskopiyası-nın müasir imkanları ilə araşdırılmışdır.

Ədəbiyyat

1. K.A. Kumar, P. Jayaroopa, International journal of pharmaceutical, chemical and bioligical sciences, 2013, 3(4) p. 294
2. K.Manna, U.Bannik, P.Sakha, G.M.Das, Jour.Pharm.Sci, 2014, 1(1), p. 37
3. R.Khobare, R.P.Pawar, K.D.Warad, A.Tayade, C.B.Mane, European Journal of Molecular & Clinical Medicine, 2020,07(07),p. 2517

İ.İ. Ələkbərova

AMEA Neft-Kimya Prosesləri İnstitutu

ialakbarova77@gmail.com

PARA-KREZOLUN METİLTSİKLOHEKSENLƏRLƏ KATALİTİK TSİKLOALKİLLƏŞMƏ REAKSİYALARININ KİNETİK QANUNAUYĞUNLUQLARI

Tədqiqatların aparılmasında məqsəd para-krezolun ortofosfat turşusu hopdurulmuş Seolit-Y katalizatorunun iştirakında 1(3)-metiltsikloheksenlərlətsikloalkilləşmə reaksiyalarının kinetik qanuna-uyğunluqlarının və mexanizminin öyrənilməsindən ibarətdir.

Turş katalizatorların iştirakı ilə tsikloalkilləşmə reaksiyanın mahiyyəti ədəbiyyat və öz təcrübi nəticələrimizə əsaslanaraq ümumi şəkildə mexanizmini vermək olar [1,2].



Reaksiyanın ehtimal olunan mexanizmi əsasında ilkin xammalların və reaksiya məhsullarının vaxtdan asılı olaraq differensial bərabərlik sistemi yaradılmışdır.

$$\frac{dC_A}{dt} = -K_1' \cdot C_A^{n_1} \cdot C_B^{n_2} \quad (1)$$

harada: CA, CB, Cİ, CC – 1-metiltsikloheksen, para krezol, aralıq kompleksin qatılığı, məqsədli məhsul n1, n2 – məhsula görə əmsal; K1. K2 – sürət sabitləri.

Aralıq kompleks birləşmə reaksiyanın gedişində alınır və sonra müşahidə olunmur. Buna görə bu kompleksin əmələgəlmə və sərfi sürətlərini sıfıra bərabər etməklə bu kompleksi məlum A və B maddələrinin köməyi ilə qatılığın düsturunu tapırıq:

$$\frac{dC_{\dot{I}}}{dt} = -K_1''' \cdot C_A^{n_1} \cdot C_B^{n_2} - K_2 \cdot C_{\dot{I}} = 0\,;\; C_{\dot{I}} = \frac{K_1''' \cdot C_A^{n_1} \cdot C_B^{n_2}}{K_2} \quad (2)$$

(1) bərabərliklərində qiymətlərini yerinə qoymaqla yeni differensial bərabərlik sistemi almış oluruq:

$$\frac{dC_A}{dt} = -K_1' \cdot C_A^{n_1} \cdot C_B^{n_2}\,;\; \frac{dC_B}{dt} = -K_1'' \cdot C_A^{n_1} \cdot C_B^{n_2}\,;\; \frac{dC_{\dot{I}}}{dt} = K_1''' \cdot C_A^{n_1} \cdot C_B^{n_2} \quad (3)$$

Differensialtənliklərin (3) kinetik bərabərliklərin qiymətləndirilməsi addımın avtomatik seçilməsininvə təsadüfi axtarışı ilə həyata kecirilir.

Reaksiya sürət sabitinin Arrenius tənliyinə görə temperaturdan asılılığını təyin etməklə aktivləşmə enerjisini və əvvəldən hesablanmış cəmlərin qiymətlərini tapırıq.Kinetik parametrlərin hesablanmasının nəticələri cədvəldə verilir.

Cədvəl.1

Reaksiyanın kinetik parametrləri

Sürətin əmsalı kil·mol-1·dəq^{-1}	Temperatur, K			Aktivləşmə enerjisi Ei kdj·mol-1·dəq^{-1}	koil·mol-1·dəq^{-1}
	353	383	413		
K_1'	0,0062	0,012	0,017	54,72	0,146·106
K_1''	0,0064	0,015	0,021	65,05	0,38·107
K_1'''	0,0071	0,018	0,03	78,1	0,234·109

Eyni zamanda vahidə yaxın olan məhsula görə qaydası təyin edilmişdir. Reaksiyanın mexanizminin seçilmiş sxemi əsasında yaradılmış kinetik model sürət sabitlərinin tapılmış qiymətlərində prosesi yaxşı əks etdirir.

Modelin oxşarlığı kompüterdə təcrübi və hesablanmış qiymətləri fərqlərinin kvadratları cəminin minimumlaşdırılması yolu ilə yoxlanılmışdır.İlkin və son məhsulların uyğunsuzlugu 5-7 %-dən çox olmur. Bu ona əsas verir ki, reaksiyanın yaradılmış kinetik modeli təcrübi göstəricilərlə üst-üstə düşür.

Ədəbiyyat

1. Rasulov Ch.K., Aghamaliyev Z.Z., Abasov S.I. Cycloalkylation of para-cresol with 1-methylcycloalkenes in the presence of phosphorous-containing zeolite // Processes of petrochemistry and oil-refining, Baku, 2017, Vol.18, №1, – p.80-87.
2. Won Je Lee, Jonggeol Na, Kyeongsu Kim et al. NARX modeling for real-time optimization of air and gas compression systems in chemical processes. Computers & Chemical Engineering, 2018, Vol.115, pp.262-274.

N.Y. Zeynalov, S.S. Yusifli, R.Ə. Hüseynova

Bakı Dövlət Universiteti

natiqzeynalov@bsu.edu.az

PROPİLENİN n-BUTENLƏRLƏ SOOLİQOMERLƏŞMƏSİ PROSESLƏRİNİN EKOLOJİ GÖSTƏRİCİLƏRİ

Katalitik krekinq qazlarının C_3-C_4 fraksiyasının kompleks isti-

fadə texnologiyasının işlənməsi sahəsində propilen- n-butenolefinlərinin sooliqomerləşməsi mərhələsinin mövcud texnologiyaları iqtisadi və ekoloji səmərəliliyinə görə kəskin fərqlənir[1]. Son vaxtlar bu sahədə çox geniş araşdırmalar aparılsa da istehsal sahələrinin əksəriyyətində ekoloji göstəricilərin təsir faktorlarına görə idarə olunması prosesin idarəedici funksiyaları sisteminə daxil edilməmişdir.

Əksər işlərdə xammalın, proses məhsullarının, onların təmizlənmə proseslərinin ekoloji göstəriciləri, eləcə də iştirakçı enerji axımının əlavə təsirləri proseslərin kinetik modelində, optimal təyinat modelində və ümumi riyazi modeldə nəzərə alınmamışdır.

Ona görə də mövcud lahiyələr üzrə sooliqomerləşmə proseslərinin idarə olunması işi təşkil olunarkən sistem üzrə ekoloji tarazlıqdan kənara çıxma halları aşkar təyinata gətirilməlidir. Texnolojiprosesin ekoloji təsir effekti (Yek) kimi müəyyənləşən bu göstərici izlənən komponentlərin aktiv təsiri və mümkün energetik paylanmalarınmübadilə tarazlığına təsir imkanının nəticəsi kimi qəbul olunur[2]. Bu halda təyinat ifadəsi sistemə təsir göstərən j=1……..k faktorlarının iştirakında daxil olan Xj faktoruna görə növbəti yazılış modeli ilə müəyyənləşəcək;

$$Y_{ek} = \beta_0 + \sum_{j=1}^{k} \beta_j \cdot k_j + \sum_{j=1}^{k-1} \sum_{i=j+1}^{k} \beta_j x_j \; x_i + \sum_{j=1}^{k} \beta_{i \cdot j} \; x_j^2 + \cdots \; (1)$$

Məsələnin həlli tərəfimizdən katalitik krekinq qazlarının 22-26%- ni təşkil edən propilen- n-buten qarışığının protondaşıyıcı axınıştirakındasooliqomerləşməsiiləaxar-qarışdırıcılıreaktordareallaşdırılıb.

Sooliqomerləşmə prosesi məlum metodlarla müqayisədə nisbətən aşağı temperaturda (30-50°C) yüksək sürətlə baş verir. Prosesin ekoloji səmərəliliyinin izlənməsi məlum informasiya məlumatları və eksperimental nəticələrin planlaşdırılması metodunun tətbiqi əsasında (1)- ifadəsinin prosesə tətbiqi əsasında "MATLAB-6" proqramının köməkliyi ilə aparılır.

Ədəbiyyat

1. Котов С.В., Моисеев И.К., Шабанова А.В., Олигомеры олефинов: Способы получения и применение в качестве компонентов топлив и масел (обзор)// Нефтехимия, 2003, т.43, №5, с.323-333.
2. Zeynalov N.Y., Cavadov M.Ə. Ekoloji səmərəliliyə çağırış // Ümummilli lider H.Əliyevin 95 illik yubileyinə həsr olunmuş " Kimyanın Aktual Problemləri " Beynəlxalq Elmi konfransı. Bakı, 2019.

N.Ə. Əkbərov, İ.Ş. Hüseynov
S.N. Abdullayeva, A.F. Şahverdiyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
adpu-kimya@mail.ru

SÜRTKÜ YAĞLARI ÜÇÜN YENİ TİP ÇOXFUNKSİYALI AŞQARLAR

Sürtkü yağlarının keyfiyyətini yaxşılaşdırmağın ən səmərəli yolu onlara effektiv aşqarların əlavə edilməsidir. Bu aşqarlar içərisində kükürdüzvi və azotlu birləşmələr xüsusi yer tutur[1]. Kükürdüzvi birləşmələr, əsasən yeyilmə və siyrilmə, azotlu üzvi birləşmələrisə oksidləşmə əleyhinə aşqar kimi tətbiq edilir. Azərbaycan MEA AşqarlarKimysı İnstitutunda (AKİ) sistemli şəkildə aparılan elmi-tədqiqat işlərindən məlum olmuşdur ki, kükürd elementi üçüzvlü heterotsikllərdə –tiiran törəmələrində olduqda onların yeyilmə və siyrilmə əleyhinə xassələri daha yüksək olur. Sürtkü yağları üçün daha effektli yeni sinif aşqarlar axtarıb tapmaq məqsədilə, biz müxtəlif növ funksionaləvəzlitiiranlar sintez etdik. Tədqiqat obyekti olaraq, tərkibində arilamin qrupları (ArNH-) olan tiiran törəmələri sintez edilərək sürtkü yağlarının tərkibində aşqar kimi sınaqdan keçirilmişdir.

Arilamnəvəzlitiiranların(1,2-epitio-3-N-arilaminpropanla-rın) ən əlverişli sintez metodu – başlanğıc maddə kimi sənaye miqyaslı reaktiv olan 1,2-epoksi-3-xlorpropandan (EXH) istifadə etməklə aromatik aminlər əsasında, əvvəlcə, arilaminəvəzlihalogenhidrinlər, sonra onlara müvafiq oksiranlar və nəhayət, oksiranlarıntioepoksidləşdirilməsi ilə müvafiq tiiranlar almaqdan ibarətdir:arilaminlər→halogenhidrinlər→ oksiranlar → tiiranlar.

Ia-VIIIa



Burada: Ar=C_6H_5-, 2-CH_3-C_6H_4-, 3-CH_3-C_6H_4-, 4-CH_3-C_6H_4-, 2-NO_2-C_6H_4-, 3-NO_2-C_6H_4-, 4-NO_2-C_6H_4-, $C_6H_5CH_2$- (I-VIII)

Reaksiyalar ədəbiyyatda olan oxşar metodlara uyğun olaraq aparılmışdır[2-4].

Sintez edilmiş maddələrin tərkibi element analizi, quruluşu spektroskopik üsullarla, təmizliyi xromatoqrafik metodlarla, funksional (yağlayıcı) xassələri isə dördkürəcikli sürtünmə maşınında M-14 markalı mineal yağın tərkibində məlum metodla təyin edilmişdir.

Aparılan elmi araşdırmalardan məlum olmuşdur ki, sintez olunmuş arilamin əvəzli tiran törəmələrinin M-14 markalı mineal yağa 5-6 % (100 ml yağa 0,025 mol aşqar) miqdarda əlavə olinması onun bir çox yağlayıcı xassələrini – yeyilmə, siyrilmə, oksidləşmə əleyhinə xassələrini xeyli yaxşılaşdırır. Ona görə də arilaminəvəzlitiiran törəmələri sürtkü yağları üçün çoxfunksiyalı yeni tip aşqar kimi tətbiq oluna bilər.

Ədəbiyyat

1. Акперов Н.А. Синтез и применение различных функционально замещенных тииранов и тиетанов.// Процессы нефтехимии и нефтепереработки, 2005, №3(22), с.35-51.
2. Фокин А.В., Коломиец А.Ф.Химиятииранов. М.:Химия, 1978,343 с.
3. Kloc K., Kabicz E., Mlochowski J.A new approach to functionalization of azines. Oxiranil and thiiranil derivatives of pyridine guinolineisoguinoline.// Heterocycles, 2014, v.22, №11, p.2517-2522.
4. Əkbərov N.Ə. Tiiran və tietanların bəzi törəmələrinin sintezi və onların antimikrob xassələrinin tədqiqi.// Kimya problemləri, 2015, №1, s.136-140.

Ü.S. İbadzadə, T.M. Nağıyev

Bakı Dövlət Universiteti

ulkeribad@gmail.com

PİPERİDİNİN AZOT 1-OKSİDLƏ KVARS REAKTORDA OKSİDLƏŞMƏ REAKSİYASININ TƏTBİQİ

Koherent-sinxronlaşdırılmış oksidləşmə reaksiyaları prinsipinin praktiki sahələrindən biri təbiibirləşmələrinpreparativ məqsədlər üçün və daha geniş miqyasda istifadəsi ola bilər. Lakin kimyəvi

quruluşlarına görə təbii birləşmələrə daha yaxın mürəkkəb azottərkibliheterotsiklik birləşmələrin çevrilməsinə keçmək üçün ayrı-ayrı fraqmentlərin iştirakı ilə uyğun reaksiyaları tədqiq etmək zəruridir. Bu məqsədlə bizdə bir çox alkoloidlərin fraqmenti sayılan poperidinin (PP) dehidrogenləşməsi reaksiyası öyrənilməsi məqsədilə eksperimental qurğu yığılıb hazırlamışıq (Şəkil 1).

Bu tipli reaktorda bir sıra karbohidrogenlərin - etilbenzol, toluol, tsikloheqsan, 4-etilpiridin, 2-metilpiridin, piperidin və s. hidrogen peroksidlə koherent-sinxrolaşdırılmış reaksiyaları aparılmışdır.



Şəkil 1. Kvars reaktorunun sxemi

Tədqiqatlar nəticəsində proseslərin optimal aparılma şəraitləri təyin olunmuşdur. Aparılmış tədqiqatlar o fakta gətirir ki, verilmiş reaksiya sistemi sadələşdirilmiş texnologiya ilə qiymətli monomerlər sırasını almağa imkan verir ki, bu da sənayenin bir çox sahələrində istifadə olunan heterogen katalitik proseslərə nisbətən bir sıra üstünlüklərə malikdir.

Piperidin oksidləşməsi reaksiyası axın tipli reaktordaaparılmışdır (Şəkil 1). Reaktorun konstruksiyası azot-1oksidin parçalanmamış halda reaksiya zonasına daxil olmasını təmin edir. PP üçün oksidləşdirici rolunu oynayan N^2O PP-dən ayrı şəkildə kvars boru vasitəsilə reaktora ötürülür və burada oksidləşdirici ilə PP qaz fazada qarşılıqlı təsirdə olur. Reaksiya zonasının həcmi 5,5sm^3 təşkil edir. PP tibbi şprislə reaktora ötürülür, elektromotora qoşulmuşvə onun vasitəsilə hərəkətə gətirilən mexaniki cizah PP-inoksidləşdiricidən ayrı kvars boru (4) vasitəsilə reaksiya zonasının ötürür. Mexaniki cihazın iş prinsipi ona əsaslanır ki, elektromotorun hərəkətinə sinxron şəkildə fırlanaraq vinti aşağaitəliyir və maye reagenti reaktora ötürür.

Müxtəlif ölçülü vintlərdən istifadə edərək reagentin sürətini dəyişmək mümkündür. Bununla yanaşı, reagentin sürətini dəyişmək üçün müxtəlif həcmli şprislərdən istifadə etmək də mümkündür. So-

yutma zonası reaksiya zonasına olduqca yaxın yerləşir. Bu soyutma sistemi o məqsədlə istifadə olunur ki, reaksiya məhsullarının miqdari və vəsfi analizi xromatokültə-spektroskopiyanın yolla həyata keçirilir.

Ədəbiyyat

1. Нагиев Т.М. В кн. Химическое сопряжение М: Наука, 1989, 216 с.
2. Nagiyev T.M. В кн. Coherent Synchronized Oxidation by Hydrogen Peroxide Amsterdam: Elsevier. 2007, 325p.

İ.Q. Məmmədov, V.R. İsrəfilova, Y.V. Məmmədova

BakıDövlətUniversiteti

isrefilovavusale1998@gmail.com

ÇOXKOMPONENTLİ SİNTEZLƏRDƏ QLİSERİN HƏLLEDİCİ KİMİ

Ədəbiyyatda çoxkomponentli sintezlərin əksəriyyətinin bahalı, yaxud da klassik zəhərli həlledicilər iştirakında aparılmasına aid məlumatlara rast gəlinir [1, 2].

Məlumdurki, təbii yağların trans efirləşməsi zamanı çoxlu miq-darda yan məhsul olan qliserin əmələ gəlir [3]. Qliserin geniş tətbiq sahəsinə malik olub tibbdə, kənd təsərrüffatında, eləcədə qida-, boya-, dəri-, kağız-, tütün-, yuyucu və kosmetik vasitələrin hazırlanmasında xüsusi əhəmiyyət daşıyır.

Göstərilənlər nəzərə alınaraq ekoloji təmiz, eləcədə yaşıl həl-ledici olan qliserin həlledicisi iştirakında darçın-, 5-bromsalisil al-dehidlərinin malonodinitril və dimedonla klassik kondensləşmə re-aksiyalarından müvafiq tetrahidro-4H-xromen törəmələri sintez olunmuşdur.



(*E*)-2-Amino-7,7-dimetil-5-okso-4-stiril-5,6,7,8-tetrahidro-4*H*-xromen-3-karbonitril



2-Amino-4-(5-brom-2-hidroxifenil)-7,7-dimetil-5-okso-5,6,7,8-tetrahidro-4*H*-xromen-3-karbonitril

Sintez olunan birləmələrin quruluşu Nüvə Maqnit Rezonansı (NMR) spektroskopiyasının köməyilə öyrənilmişdir.

Ədəbiyyat

1. G. Zhong, M. Lu, Y. Lu, P. Tan, Q. Lau, Synlett 2011, 477–480.
2. S.C. Chuang, S.P. Sung, J.C. Deng, M.F. Chioua, D.S. Hsu,Organic& Biomolecular Chemistry, 2016, 14, p.2306-2317
3. N. Binhayeeding, S. Klomklao, K. Sangkharak, Energy Procedia, 2017, 138, p. 895-900

X.A. Hüseynbəyli

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

xhuseynbeyli98@mail.ru

TERMİKİ KREKİNQ PROSESİNİN RİYAZİ MODELLƏŞDİRİLMƏSİ

